# ƏHALİNİN HƏSSAS QRUPLARI ÜÇÜN MÜLKİ HÜQUQ VƏ İNZİBATİ HÜQUQ SAHƏLƏRİNDƏ HÜQUQİ YARDIM MEXANİZMLƏRİNİN EFFEKTİVLİYİ VƏ SƏMƏRƏLİLİYİNƏ (BMT-NİN VƏ AVROPA ŞURASININ STANDARTLARI FONUNDA) DAİR QİYMƏTLƏNDİRMƏ HESABATI



Dr. Stefanie Lemke,
Beynəlxalq məsləhətçi,
BMTİP

**Əhalinin həssas qrupları üçün mülki hüquq və inzibati hüquq sahələrində hüquqi yardım mexanizmlərinin effektivliyi və səmərəliliyinə (BMT-nin və Avropa Şurasının standartları fonunda) dair qiymətləndirmə hesabatı**

*Dr. Stefanie Lemke, Beynəlxalq məsləhətçi, BMTİP*

**Mündəricat**


**İxtisarların siyahısı** ........ vi

**Hesabatın əhatə dairəsi** ........ viii

**I bölmə: Giriş** ........ 1

***A. Hesabatın məqsədi*** ........ 1

***B. Terminologiya*** ........ 2

***C. Metodologiya və məhdudiyyətlər*** ........ 3

**II bölmə: Azərbaycanda əhalinin həssas qruplarına mülki və inzibati hüquq sahələrində hüquqi yardımın göstərilməsinin cari vəziyyəti** ........ 4

***A. Giriş*** ........ 4

***B. Hüquqi yardımın təşkili və idarə edilməsi*** ........ 4

***C. Hüquqi yardım xidmətinin müyəssərliyi*** ........ 5

***D. Hüquqi yardımın benefisiarları*** ........ 6

***E. Hüquqi yardım xidmətinin təminatçıları*** ........ 7

**III bölmə: Təhlil** ........ 8

***A. Xidmətlərin müyəssərliyi*** ........ 8

***1. Xidmətin normativ-hüquqi bazası*** ........ 8

a) Uyğunluq hədləri ........ 8

*aa) Hüquqi yardımın resipiyentləri* ........ 8

b) İlkin və ikinci səviyyəli hüquqi yardımın tərifi ........ 9

***2. Xidmətin təbliği*** ........ 10

***B. Hüquqi yardım təminatçıları arasında səmərəli koordinasiya*** ........ 12

***C. Xidmətin keyfiyyət təminatı*** ........ 14

***1. Hüquqi yardım üzrə səlahiyyətli orqan*** ........ 14

***2. Xidmətin keyfiyyət təminatı*** ........ 14

***3. Məlumatların toplanması*** ........ 16

***D. Xidmətin iqtisadi səmərəliliyi*** ........ 16

**IV bölmə: Tövsiyələr** ........ 18

***Ədəbiyyat*** ........ 20

**Minnətdarlıq**

*Qiymətləndirmə hesabatı beynəlxalq məsləhətçi Dr. Stefanie Lemke tərəfindən hazırlanıb. Hesabatın hazırlanmasına yerli məsləhətçi cənab Elçin Usub tərəfindən köməklik göstərilib. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Vəkillər Kollegiyası, elm ictimaiyyəti və QHT-lər tədqiqatın ərsəyə gəlməsinə dəyərli töhfələr verib. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Ölkə Nümayəndəliyi tədqiqat müddətində istiqamət və töhfələr vermişdir. Yuxarıda qeyd olunan qurumların BMTİP-in Ölkə Nümayəndəliyi ilə sıx əməkdaşlığına, habelə dəyərli töhfələrinə və rəylərinə görə minnətdarlığımızı bildiririk. Həmçinin, tədqiqata yüksək dərəcədə töhfə vermiş milli ekspertlərlə məsləhətləşmələrə görə minnətdarlığımızı bildiririk.*

**Məsuliyyətdən imtina**

*Bu nəşrdə ifadə edilən fikirlər müəllifə məxsusdur və Birləşmiş Millətlər Təşkilatının, o cümlədən BMTİP və ya BMT-nin üzv dövlətlərinin fikirləri ilə üst-üstə düşməyə bilər.*

**Qısa xülasə**

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) fəaliyyəti yoxsulluğun azaldılması, səmərəli idarəçilik, iqlim dəyişmələri, habelə iqtisadi inkişaf sahələrinə yönəlir. İnklüzivlik və "heç kəsi kənarda qoymamaq" prinsiplərini rəhbər tutaraq, BMTİP-in Azərbaycandakı Nümayəndəliyi müvafiq milli tərəfdaşlar üçün mülki hüquq və inzibati hüquq sahələrində hüquqi yardımın göstərilməsi və hüquqi yardıma dair yeni təlimatların hazırlanması üzrə potensialın gücləndirilməsinə yönələn təlim keçirib.

Hazırkı hesabat vasitəsilə, BMTİP-in Azərbaycandakı Nümayəndəliyi hüquqi yardım mexanizmlərinin təkmilləşdirilməsi imkanlarını müəyyən etmək məqsədilə onların effektivliyini qiymətləndirməyi planlaşdırır. Bu qiymətləndirmənin nəticələri tərəfdaş hökumət qurumlarına təqdim olunacaq. Ölkə Nümayəndəliyi Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, Ədliyyə Akademiyası və ali təhsil müəssisələrinin hüquq fakültələri nəzdində fəaliyyət göstərən hüquq klinikaları ilə əməkdaşlıq edib.

Hüquqi yardımın müyəssərliyi xüsusilə əhalinin həssas qruplarının ədalət mühakiməsinə çıxışını təmin etmək üçün olduqca vacibdir. Buna baxmayaraq, Azərbaycanda həssas qruplar xüsusilə mülki və inzibati işlər üzrə məhkəmə icraatında hüquqi yardım xidmətlərindən istifadə baxımından çoxsaylı maneələrlə qarşılaşır.

Bu vəziyyəti nəzərə alaraq, hazırkı hesabatda həssas qrupların hüquqi yardım almaq hüququndan istifadə edərkən qarşılaşdığı əsas çətinliklərin ümumi mənzərəsi təsvir edilir, eləcə də Avropanın digər ölkələrində və digər regionlarda hüquqi yardım sahəsində qabaqcıl təcrübələrin nümunələri təqdim edilir. Bu nümunələr Azərbaycanda mülki və inzibati işlər üzrə məhkəmə icraatında hüquqi yardımın təşkili üçün alternativ və maraqlı yolları əks etdirir. Hesabat tövsiyələrin təqdim edilməsi ilə yekunlaşır. Bu tövsiyələr rəqəmsallaşmaya daha açıq olmağa və bütün əhalinin ehtiyaclarına cavab verən hüquqi yardım sisteminin qurulmasına daha çox investisiya etməyə təşviq edir. Söhbət hər bir şəxsə öz istədiyi xidmətlərə çıxış imkanı verən, xidmət keyfiyyətinin yaxşı olmasını təmin edən, habelə hər kəsi bərabər səviyyədə dəstəkləyən və səlahiyyətlərini artıran bir hüquqi yardım sistemindən gedir.

**İxtisarların siyahısı**

| | |
|---|---|
| ARVK | Azərbaycan Respublikasının Vəkillər Kollegiyası |
| ASAN | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| ASEAN | Cənubi-Şərqi Asiya Ölkələri Assosiasiyası |
| AŞ | Avropa Şurası |
| CEPEJ | Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası |
| ÖN | Ölkə Nümayəndəliyi |
| AİHK | Avropa İnsan Hüquqları Konvensiyası |
| İHAM | İnsan Hüquqları üzrə Avropa Məhkəməsi |
| Aİ | Avropa İttifaqı |
| BVK | Beynəlxalq Vəkillər Kollegiyası |
| İT | İnformasiya Texnologiyaları |
| ƏN | Ədliyyə Nazirliyi |
| QHT | Qeyri-hökumət təşkilatı |
| BMT İHAK | Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| DİM | Dayanıqlı İnkişaf Məqsədləri |
| BK | Birləşmiş Krallıq (İngiltərə və Uels) |
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| UNODC | BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsi |
| UNFPA | BMT-nin Əhali Fondu |

**Hesabatın tərkibi**

Bu hesabat dörd hissədən ibarətdir:

- Hesabatını məqsədini, istifadə edilmiş terminologiya və metodologiyanı izah edən giriş hissə (**I bölmə**).
- Azərbaycanda həssas qruplar üçün mülki hüquq və inzibati hüquq sahələrində hüquqi yardımın göstərilməsinin cari vəziyyətini təqdim edən ikinci hissə (**II bölmə**).
- Digər Avropa ölkələrində və Azərbaycan kontekstinə uyğun olan digər regionların ölkələrində mövcud olan hüquqi yardıma dair qabaqcıl təcrübələrin nümunələrinin təqdim edildiyi "təhlil" hissəsi. Onlar özlüyündə "model" kimi deyil, Azərbaycanda həssas qruplar üçün mülki və inzibati işlərdə hüquqi yardımın təşkilinin alternativ və maraqlı üsulları kimi təqdim olunur (**III bölmə**).
- Tövsiyələrin təqdim olunduğu sonuncu hissə (**IV bölmə**).

## I bölmə: Giriş

### *A. Hesabatın məqsədi*

Hesabatın məqsədi Azərbaycanda əhalinin həssas qrupları üçün mülki hüquq və inzibati hüquq sahələrində hüquqi yardım sisteminin effektivliyini və səmərəliliyini BMT-nin və Avropa Şurasının standartları fonunda nəzərdən keçirməkdir.

2013-cü ildə BMT-nin hakimlərin və vəkillərin müstəqilliyi üzrə Xüsusi Məruzəçisi bəyan etdi ki, hökumətlər qanunun aliliyinə əsaslanan ədalətli və səmərəli ədalət mühakiməsi sisteminin ayrılmaz komponenti kimi səmərəli hüquqi yardım sistemini qurmalı və saxlamalıdır.[1] Həll edilməmiş hüquqi problemlər insanların yaşayış vasitələrinə ağır təsir göstərə bilər. Bu səbəbdən, bir çox ölkələr insanların öz hüquqlarından daha asan istifadəsinə şərait yaratmaq, onları öz hüquqları barədə maarifləndirmək və hüquqi mübahisələrin həllində onlara yardım etmək üçün hüquqi yardım proqramları yaradıb. Hüquqi yardım insanlara öz səslərini eşitdirməkdə, eləcə də vəkil tutmaq üçün maddi imkanı olan və olmayanlar arasında ədalət mühakiməsi sahəsindəki bərabərsizliyi aradan qaldırmaqda kömək edə bilər. Buna görə də, hüquqi yardım bütün aspektlərdə yüksək səviyyədə olmalıdır. Bura bütün insanların hüquqi yardımdan istifadə edə biləcəklərindən məlumatlı olması, hüquq mütəxəssislərinin qısa vaxt çərçivəsində keyfiyyətli hüquqi yardım göstərmək qabiliyyəti və insanları düzgün hüquqi mütəxəssisə yönləndirmək və bununla da hüquqi vəziyyət pisləşməzdən və məhkəmələri yükləməzdən əvvəl hüquqi proseslərdən nəzərdə tutulan qaydada istifadə etməyə imkan vermək üçün hüquqi yardım təminatçılarının (fərdlərin və təşkilatların) nə dərəcədə şəbəkələşmələri daxildir.

Lakin praktikada bir çox milli hüquqi yardım sistemləri həssas qrupların məxsusi ehtiyaclarını nəzərdən qaçırmaqla və ya kifayət qədər nəzərə almamaqla uğursuzluğa düçar olur.[2] "Əhalinin həssas qrupları" dedikdə, mənfi sosial, iqtisadi və mədəniyyətlə bağlı faktorlar səbəbindən cəmiyyətdən təcrid olunan əhali qrupu nəzərdə tutulur.[3] Buna görə də, müxtəlif beynəlxalq və regional hüquqi sənədlər hamı üçün ədalət mühakiməsinə bərabər çıxış imkanı hüququnu, o cümlədən mülki və inzibati məhkəmələrə çıxış hüququnu təşviq edir. Bu sənədlərdən bir çoxu Azərbaycana da şamil olunur.

2016-cı ildə Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) rəsmi olaraq qüvvəyə mindi.[4] Həmin il Azərbaycan Prezidenti DİM-lərin həyata keçirilməsinə dəstək göstərməsi üçün Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında fərman imzaladı.[5] DİM 16.3 "hamı üçün ədalət mühakiməsinə bərabər çıxış imkanını təmin etmək" üçün nəzərdə tutulub. Bundan başqa, Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra 2002-ci ildə Avropa İnsan Hüquqları Konvensiyasını (AİHK) ratifikasiya etdi və bununla da İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) üzvünə çevrildi.[6] Konvensiyanın 6-cı maddəsi insanların ədalətli məhkəmə araşdırması hüququna təminat verir. Bunun üçün isə hüquqi yardım hüququ vacibdir. Konvensiyanın 6-cı maddəsi mülki və inzibati proseslərdə hüquqi yardım almaq hüququnu birbaşa təsbit etməsə də, İHAM müəyyən etmişdir ki, əgər şəxs mülki məhkəmə rüsumlarını ödəyə bilmirsə, bu

---

[1] UN Special Rapporteur on the independence of judges and lawyers (2013) 'Legal aid, a right in itself' (*Hüquqi yardım, özlüyündə bir hüquqi kimi*). *OHCHR*. https://www.ohchr.org/en/press-releases/2013/05/legal-aid-right-itself-un-special-rapporteur.

[2] Stefanie Lemke (2022) The Role of Legal Technology to Strengthen the Access to Justice for Disadvantaged Groups: An Overview of Best Practices from Asia and Europe (*Həssas qruplar üçün ədalət mühakiməsinə çıxışı gücləndirmək üçün hüquqi texnologiyanın rolu: Asiya və Avropadan qabaqcıl təcrübələrin xülasəsi*), in: Association for Monitoring Equal Rights (ed.), *International Conference on Access to Justice: Strengthening Access to Justice for Disadvantaged Groups* (Ankara, Association for Monitoring Equal Rights). p. 3.

[3] OHCHR (2021) 'Non-discrimination: groups in vulnerable situations' (*Ayrı-seçkiliyə yol verməmə: həssas vəziyyətlərdə olan qruplar*). *OHCHR*. https://www.ohchr.org/EN/Issues/Health/Pages/GroupsInVulnerableSituations.aspx; UN 'Vulnerable Groups: Who are They?' (*Həssas qruplar: Onlar kimlərdir?*). *UN*. https://www.un.org/en/fight-racism/vulnerable-groups.

[4] Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası (2015) "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi", 21 oktyabr 2015, A/RES/70/1.

[5] Bax, məsələn, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Maddə 14.

[6] Avropa Şurası (2022) 'Azərbaycan'. AŞ. https://www.coe.int/en/web/portal/azerbaijan.

rüsumları ödəmək tələbi onun məhkəməyə çıxışına mane olmamalıdır[7]. Mülki və inzibati hüquq sahələrində hüquqi yardımın göstərilməsi ilə bağlı daha ətraflı məlumat AŞ Nazirlər Komitəsinin 2021-ci ildə qəbul etdiyi "Mülki və İnzibati Hüquq Sahələrində Hüquqi Yardım Sistemlərinin Effektivliyi və Səmərəliliyinə dair Təlimatlar"da (bundan sonra - "Təlimatlar") əksini tapır.[8] Təlimatlar Azərbaycan da daxil olmaqla, Avropa Şurasına üzv dövlətlərdə mülki və inzibati hüquq sahələrində milli hüquqi yardım sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsi üçün ümumi vasitələri təqdim edir. Onlar hüquqi mübahisələrin erkən və tez həlli, hüquqi yardım sistemlərində keyfiyyətin təmin edilməsi, insanların hüquqi yardım almaq üçün maddi baxımdan uyğunluğunun müəyyən edilməsi, hüquqi yardım təminatçılarının təşkili və mövcudluğu və ölkə əhalisinin hüquqi ehtiyaclarını öyrənmək üçün məlumatların toplanması kimi məsələlər üzrə mexanizm və üsulları təsvir edir. Təlimatlar xüsusilə, həssas əhali qruplarının ədalət mühakiməsinə çıxışının təmin edilməsində hüquqi yardımın mühüm rolunu vurğulayır və dövlətləri DİM-lərin "ədalətli, bərabərhüquqlu, tolerant, açıq və sosial cəhətdən inklüziv dünya"nı ehtiva edən gələcəyə baxışına əməl etməyə təşviq edir.[9]

Hesabatın aşağıdakı bölməsində Azərbaycanda həssas qrupların hüquqi yardım xidmətlərindən istifadə edərkən qarşılaşdıqları əsas çətinliklərdən bəziləri göstərilir, ardınca isə digər AŞ üzv dövlətlərində və Azərbaycan kontekstinə uyğun olan digər regionların ölkələrində mövcud olan hüquqi yardıma dair qabaqcıl təcrübələrin nümunələri təqdim edilir. Hesabat aydın və konkret tövsiyələrin təqdim edilməsi ilə yekunlaşır.

### *B. Terminologiya*

Bu sənəddə müxtəlif terminlərdən istifadə olunur. Onlar istifadə edildiyi kontekstdən asılı olaraq, fərqli mənalar daşıya bilər. Bu hesabatın kontekstində aşağıdakı təriflərdən istifadə olunur:

- "**Ərizəçi**" - hüquqi yardım üçün müraciət edən şəxs.
- "**Hüquq klinikası**" - peşəkar nəzarət altında olmaqla (zərurət olduqda), hüquq sahəsində təhsil alan tələbələrin və potensial olaraq digərlərinin iştirakı ilə hüquq xidmətinin (faktiki və ya simulyasiya şəklində) göstərilməsi.[10]
- "**Hüquqi yardım**" - müvafiq meyarlara cavab verən şəxsə hüquqi məsləhət və köməklik və/yaxud təmsilçilik.[11]
- "**Hüquqi yardım təminatçısı**" - tam və ya natamam iş qrafiki ilə, yaxud konkret fərdi işlər üzrə hüquqi yardımın göstərilməsində iştirak edən hər hansı şəxs (hüquqi və ya fiziki şəxs - hüquq sahəsi üzrə peşəkar ixtisaslaşmaya malik olmasından asılı olmayaraq).[12]
- "**Bir pəncərə prinsipinə əsaslanan mərkəz**" - hökumət və qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif hüquqi xidmətlərin göstərildiyi vahid yer.[13]
- "**Hüquqi köməkçilər**" - ali təhsil müəssisəsi xaricində hüquqi təhsili olan şəxslər.
- "**İlkin hüquqi yardım**" - hüquqi məlumatlandırma, ilkin hüquqi məsləhət və hüquqi yardım haqqında məlumatlandırma ilə bağlı xərcləri qarşılamaq üçün hüquqi yardım. Bu, məhkəmələr qarşısında hüquqi təmsilçiliyi ehtiva etmir.[14]
- "**İkinci səviyyəli hüquqi yardım**" - məhkəmələr qarşısında təmsilçiliklə bağlı xərcləri qarşılamaq üçün hüquqi yardım.[15]

[7] AİHK, *Kreuz Polşaya qarşı*, Ərizə № 28249/95, 19 iyun 2001, 60-67-ci bəndlər.
[8] Avropa Şurası (2021) Mülki və inzibati hüquq sahələrində hüquqi yardım sistemlərinin səmərəliliyi və effektivliyinə dair təlimatlar) (Strasburq, AŞ).
[9] AŞ təlimatları (2021), səh. 5, 8, 10, 11, 16.
[10] Linden Thomas and Nick Johnson (2020) *The clinical legal education handbook (Kliniki hüquqi maarifləndirmə üzrə masaüstü kitabça)* (London, University of London Press). p.7
[11] AŞ Təlimatları (2021), tərif 9(g).
[12] AŞ Təlimatları (2021) , tərif 9(h).
[13] AŞ Təlimatları (2021), tərif 9(l).
[14] AŞ Təlimatları (2021), tərif 9(o).
[15] AŞ Təlimatları (2021), tərif 9(q).

- “**Əhalinin həssas qrupları**” - mənfi sosial, iqtisadi və mədəniyyətlə bağlı faktorlar səbəbindən cəmiyyətdən təcrid olunan əhali qrupları.[16]

### *C. Metodologiya və məhdudiyyətlər*

Bu hesabatda, gəlinən nəticələri əsaslandırmaq üçün konkret sübutlar yaratmaq məqsədilə məlumatların toplanması və təhlildən istifadə olunur. Bu hesabat üçün məlumatlar geniş spektrli ədəbiyyat və sənədlərə baxış və maraqlı tərəflərlə müsahibələr vasitəsilə toplanılıb.

Bu hesabat üçün hüquqi yardımın təmin edilməsi və həssas əhali qruplarının vəziyyətinə dair əsas və köməkçi resurslar nəzərdən keçirilib. Bura hüquqi yardımla bağlı milli qanunvericilik çərçivəsi və müvafiq siyasətlər, beynəlxalq müqavilələr, BMTİP və AŞ-nın mövcud təlimatları, ekspert hesabatları, akademik məqalələr və digər hüquqi yardım sistemləri üzrə qiymətləndirmələr daxildir. Ədəbiyyat və sənədlərə baxışdan gəlinən nəticələr Azərbaycanın hüquqi yardım sistemində mühüm rolu olan və həssas icmaların ehtiyaclarına bələd olan maraqlı tərəflərlə müsahibələr vasitəsilə təsdiqlənib. Yerli məsləhətçinin dəstəyilə, 3 ay ərzində bu layihə üçün dövlət orqanları, peşəkar təşkilatlar və vətəndaş cəmiyyəti təşkilatları da daxil olmaqla, ümumilikdə 10 maraqlı tərəflə müsahibələr aparıldı. Müsahibələrdən əvvəl iki sorğu anketi hazırlanıb. Onlardan biri hüquqşünasların ehtiyaclarına, digərləri isə hakimlərə yönəlib. Hər iki sorğu anketinə daxil olan suallar Azərbaycanın hüquqi yardım sisteminin ictimaiyyət arasında tanınması, milli, regional və yerli səviyyəli hüquqi yardım təminatçıları arasında effektiv əlaqələndirmə, hüquqi yardımdan yararlanmaq üçün şərtlər və Azərbaycanda həssas qruplara təmin edilən hüquqi yardımın keyfiyyətini əhatə edib. Bura müzakirəyə imkan yaratmaq üçün açıq tipli və qapalı tipli suallar daxil edilib. Bundan əlavə, hazırkı hesabatda inkişaf tərəfdaşlarının gəlinən nəticələrə dair rəyləri əksini tapır.[17]

Bu hesabat hərtərəfli olmağa səy göstərsə də, hər şeyi əhatə etmir. Belə ki, bu hesabat Azərbaycanda hər bir həssas əhali qrupunun fərdi ehtiyaclarının tam mənzərəsini təqdim etməyə deyil, bütövlükdə bütün həssas qruplar üçün tövsiyələr təqdim etməyə çalışır.

[16] OHCHR (2021) ‘Non-discrimination: groups in vulnerable situations’ (*Ayrı-seçkiliyə yol verməmə: həssas vəziyyətlərdə olan qruplar*). *OHCHR*. https://www.ohchr.org/EN/Issues/Health/Pages/GroupsInVulnerableSituations.aspx.
[17] BMT İHAK-la müsahibə 19 dekabr 2022-ci ildə keçirilib.

**II bölmə: Azərbaycanda əhalinin həssas qruplarına mülki və inzibati hüquq sahələrində hüquqi yardımın göstərilməsinin cari vəziyyəti**

## *A. Giriş*

Bu hesabatın II bölməsində Azərbaycanda əhalinin həssas qruplarının mülki və inzibati hüquqi yardım xidmətlərindən istifadə zamanı qarşılaşdıqları çətinliklər və boşluqlar müəyyən edilir. İşlək hüquqi yardım sisteminin əsas xüsusiyyətlərindən biri onun hamı üçün, o cümlədən bu sistemdən yararlanmaq istəyərkən çətinliklərlə üzləşə biləcək və bunun üçün xüsusi diqqət, qayğı və ya yardıma ehtiyacı olan həssas qruplara müyəssər olmasıdır.[18] Bu o deməkdir ki, hökumətlər bütün insanların hüquqi yardım haqqında məlumat əldə etmələrini asanlaşdıran və onların istifadə edə biləcəkləri hüquqi yardım barədə məlumatlılığı artıran hüquqi yardım sisteminə malik olmalıdırlar.[19] Hər bir şəxsin bu məlumatları əldə edə bilməsi üçün hökumətlərə kömək edə biləcək müxtəlif tədbirlər və siyasətlər mövcuddur, bunlar aşağıdakılardır: hüquqi yardım almaq üçün müraciət etmək üçün sadə və konkret olan, habelə həssas qrupları da kömək istəməyə həvəsləndirən prosedurun olması; insanlara hüquqi yardım göstərən xidmət təminatçılarının (fiziki və hüquqi şəxslər) kifayət qədər olması; hüquqi yardım təminatçılarının ölkə daxilində bərabər paylanması; hüquqi yardım təminatçılarını həssas qrupların ehtiyaclarının ödənilməsində hüquqi yardımın əhəmiyyəti barədə məlumatlandırmaq; əhalini onlar üçün nəzərdə tutulan hüquqi yardımın mövcudluğu barədə kifayət qədər məlumatlandırmaq; hüquqi yardım haqqında məlumatı hamı üçün aydın və başa düşülən şəkildə təqdim etmək.[20]

## *B. Hüquqi yardımın təşkili və idarə edilməsi*

Azərbaycanın 10.2 milyon nəfər əhalisi var.[21] 15-dən artıq etnik qrup ölkə əhalisinin 8.9%-dən çoxunu təşkil edir.[22]

Azərbaycanın məhkəmə sistemi 3 pillədən ibarətdir: birinci instansiya məhkəmələri, apellyasiya məhkəmələri, kassasiya məhkəməsi.[23] Konstitusiya ədalət mühakiməsinə bərabər çıxış hüququna və hüquqi yardım almaq hüququna təminat verir. [24] Hazırda hüquqi yardımı tənzimləyən hərtərəfli vahid sənəd yoxdur. Mülki və inzibati hüquq sahəsində yeganə aktual mənbələr Mülki-Prosessual Məcəllənin 14-cü maddəsinin 5-ci bəndi, 67-ci və 67-1-ci maddələri[25] və İnzibati Xətalar Məcəlləsinin 66-cı maddəsinin 3-cü bəndidir. [26] Bundan əlavə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanun[27] və Nazirlər Kabinetinin "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında"[28] qərarı hüquqi yardıma dair müddəalara malikdir və bu müddəalar bütün hüquq sahələrinə şamil olunur. Hüquqi yardımın göstərilməsi Bakıda yerləşən Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən həyata keçirilir. O, Vəkillər Kollegiyası tərəfindən idarə edilir və 2019-cu ildə yaradılıb.[29] Regionlarda hüquqi yardımın göstərilməsi Vəkillər Kollegiyasının səyyar qrupları tərəfindən həyata keçirilir.

[18] AŞ Təlimatları (2021), səh. 7, 8 və 11.
[19] Məsələn, bax: BMT-nin Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair prinsiplər və rəhbər qaydaları (2020), prinsip 6.
[20] Məsələn, bax: AŞ Təlimatları (2021), səh. 11 və 16.
[21] UNFPA (2022) *World Population Dashboard (Dünya Əhalisi üzrə Elektron İnformasiya Paneli)* https://www.unfpa.org/data/world-population/AZ.
[22]Minority Rights Group International (2022) 'World Directory of Minorities and Indigenous Peoples: Azerbaijan' (*Azlıqların və yerli xalqların qlobal kataloqu: Azərbaycan*). https://minorityrights.org/country/azerbaijan/.
[23] Məhkəmə-Hüquq Şurası (2022) *Məhkəmə-hüquq sistemi* http://judicialcouncil.gov.az/e_mehkeme_ve_huquq.php.
[24] Azərbaycan Respublikasının Konstitusiyası (1995), 25-ci maddənin 5-ci bəndi, 60-cı maddə və 61-ci madənin 2-ci bəndi.
[25] Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi (1999), https://e-qanun.az/framework/46945 .
[26]Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015), https://e-qanun.az/framework/46960 .
[27]"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 783-IQ nömrəli Qanunu, 11-ci maddənin 3-cü bəndi və 19-cu maddənin 3-cü bəndi.
[28]"Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 fevral 2001-ci il tarixli, 31 nömrəli Qərarı, 1, 4 və 5-ci bəndlər
[29] Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı

Mülki hüquq sahəsində hüquqi yardım almaq hüququ şəxsin “kifayət qədər vəsaitinin olmaması” ilə müəyyən olunur.[30] Analoji olaraq, inzibati işlərdə hüquqi yardımın göstərilməsi sözügedən işdə hüquqi təmsilçiliyə “imkanı olmaması” tələbi ilə müəyyən olunur.[31] 2020-ci ildən bəri, hüquqi yardım üçün müraciət ərizələrinin elektron qaydada göndərilməsi tələb olunur.[32] Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi Bakı şəhərində fəaliyyət göstərən məhkəmələrin dövlət hesabına hüquqi yardımla bağlı qərarlarının bölgüsünü həyata keçirilir. Mərkəz həmçinin vəkillərin əməyinin ödənişi ilə bağlı sənədləşmə işlərini aparır. Bu məqsədlə hüquqi yardım fondu yaradılıb.[33] Hüquqi yardım üçün dövlət hesabına ayrılan vəsait (adambaşına 0.19 avro) digər Avropa ölkələri ilə müqayisədə ən aşağı göstəricilərdən biridir. 2020-ci ildə Avropa ölkələrində median göstərici adambaşına 3.08 avro olub.[34] Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 iyul tarixli 2250 nömrəli Fərmanında vəkilə ödənilən haqqın dəyişdirilməsi zərurətinin öyrənilməsi və bu barədə təkliflərinin verilməsi Nazirlər Kabinetinə tapşırılmışdır.

Azərbaycanın hüquqi yardım sisteminin özünəməxsus xüsusiyyətlərindən biri ilkin hüquqi yardımın göstərilməsi üzrə sistemin qarışıq (hibrid) olmasıdır. Bu sistem dövlət və özəl xidmət təminatçılarına hüquqi yardım xidmətləri göstərmək imkanı verir. Bura Vəkillər Kollegiyası, Ədliyyə Akademiyası, fərdi vəkillər, hüquqi köməkçilər, QHT-lər, mediatorlar və universitetlərin hüquq klinikaları daxildir. Bundan əlavə, Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi (ASAN) tərəfindən idarə olunan dövlət xidmətləri mərkəzləri mövcuddur. ASAN xidmət mərkəzləri, digər öhdəliklərindən əlavə, fərdlərə ilkin hüquqi məsləhət verən dövlət qulluqçularına malikdir. Vəkillər Kollegiyasına qəbul edilməyən hüquqi xidmət təminatçıları ilkin hüquqi yardımın təşkili və prosedurlarını özləri müstəqil şəkildə müəyyən edir və Kollegiya tərəfindən onlara nəzarət edilmir. Hazırda Bakıda Vəkillər Kollegiyası və ASAN tərəfindən daimi əsasda, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və QHT-lər (məsələn, “Hüquq və İnkişaf” İB) tərəfindən isə müvəqqəti əsasda idarə olunan “bir pəncərə” prinsipinə əsaslanan mərkəzlər mövcuddur. QHT-lərin bu cür xidmətləri təmin etməsi xarici maliyyələşmədən asılıdır. 2018-2020-ci illərdə Dünya Bankı tərəfindən Ədliyyə Nazirliyi ilə əməkdaşlıqda icra olunan daha bir pilot layihə çərçivəsində təqribən 15 min nəfər Bakıda və digər regionlarda hüquqi məsləhət üçün müraciət edib.[35] “Bir pəncərə” prinsipinə əsaslanan mərkəzlər hüquqi xidmətləri yerində və əsasən şəxsən təmin edir. İnsanların məsləhət üçün tez-tez müraciət etdiyi, təkrarlanan hüquqi məsələlərə aşağıdakılar daxildir: məşğulluq, borc, pensiya hüquqları, ailə məsələləri (boşanma və aliment), hüquqi yardım üçün uyğunluğun əhatə dairəsi, xüsusilə əlilliyi olan şəxslərin bu kateqoriyaya daxil olub-olmaması. Bundan əlavə, Vəkillər Kollegiyası tərəfindən təşkil olunan qadın vəkillər qrupu daha çox qadını öz hüquqi problemləri ilə bağlı müraciət etməyə təşviq edir. Bununla belə, məsləhətxanalara məişət zorakılığı ilə bağlı edilən müraciətlərin sayı azdır. Bu, ictimai qınaq qorxusu ilə əlaqəli ola bilər. Əhali daimi və səyyar göstərilən üzbəüz xidmətlər, Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası və QHT-lərin veb səhifələri, qaynar xətt, radio və televiziya verilişləri, çap materialları (flayer və broşuralar və sosial şəbəkələr (Facebook və Twitter) vasitəsilə hüquqi yardım imkanları barədə məlumatlandırılır.

### *C. Hüquqi yardım xidmətinin müyəssərliyi*

Hər kəsin ədalət mühakiməsinə bərabər çıxış imkanını təmin etmək üçün hüquqi yardım xidmətləri hər kəsə müyəssər olmalıdır. Əhali, xüsusilə həssas qruplar hüquqi problemlə üzləşəndə hara müraciət edə biləcəklərini, onlara hansı növ informasiyaların təqdim olunduğunu və zərurət olduqda əlavə məlumatların haradan əldə oluna biləcəyini dəqiq bilməlidirlər. Azərbaycanda isə ümumilikdə bir çox

[30] Mülki-Prosessual Məcəllənin 14-cü maddəsinin 5-ci bəndi, 66-cı və 67-ci maddələri.

[31] İnzibati Xətalar Məcəlləsinin 66-cı maddəsinin 3-cü bəndi.

[32] Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı

[33] Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı

[34] CEPEJ (2020) ‘Dynamic database of European judicial systems: Azerbaijan’. (*Avropa ədliyyə sistemlərinin dinamik məlumatlar bazası: Azərbaycan*) *CoE*. https://public.tableau.com/app/profile/cepej/viz/OverviewEN/Overview.

[35] Mənbə: Ədliyyə Nazirliyi ilə müsahibə.

insanlar və xüsusilə həssas qruplar üçün hüquqi yardım haqqında məlumat əldə etmək hələ də çətindir. Hazırda hüquqi yardım üçün müraciət prosesi qeyri-müəyyəndir və çox vaxt aparır. Hüquqi yardım üçün ərizə formasının elektron şəkildə təqdim olunması tələbi insanlara, xüsusilə həssas qruplara çətin gəlir. Həssas qruplar nə onlara yönələn hüquqi yardımın mövcudluğundan, nə də onlara bu yardımı təklif edən təminatçıların mövcudluğundan xəbərdardır. Hüquqi yardım haqqında məlumat əldə etməyin ən geniş yayılmış yolu "ağızdan-ağıza" üsuludur. İlkin və ikinci səviyyəli hüquqi yardım xidmətləri arasında aydın fərqləndirmə hazırda Azərbaycan qanunvericiliyində əksini tapmır. Qanunvericilik hazırda hüquqi yardımın əhatə etdiyi xidmətləri göstərmir və nəticədə hüquqi yardım təminatçıları hüquqi yardımın əhatə dairəsinə nəyin daxil olub, nəyin daxil olmadığını bilmir. Nəticədə, həssas qruplara mütəxəssis dəstəyi göstərə biləcək digər hüquqi yardım təminatçılarına yönləndirmələr azdır. Hüquqi yardım təminatçıları digər təminatçılar və onların funksiyaları, o cümlədən vasitəçilik xidmətləri və zərər çəkmiş şəxslərə dəstək göstərən təşkilatlar haqqında məlumatsızdır. Bundan əlavə, əlilliyi olan şəxslər və/yaxud ucqar ərazidə yaşayan insanlar çox vaxt mövcud xidmətlərdən xəbərsiz olurlar, çünki onları məlumatlandırmaq üçün istifadə olunan kommunikasiya vasitələri (məsələn, internet bağlantısının stabil olmadığı və ya ümumiyyətlə olmadığı kənd ərazilərinə hüquqi yardım haqqında məlumatın elektron vasitələrlə təqdim edilməsi) qeyri-effektivdir.

Digər bir məsələ isə xüsusilə ucqar ərazilərdə vəkilə çıxış imkanlarının çox məhdud olmasıdır. Bu, xüsusilə əlilliyi olan şəxslərə və qadınlara mənfi təsir edir.[36] Bu, əsasən vəkil çatışmazlığı ilə bağlıdır. 2020-ci ildə Azərbaycanda əhalinin hər 100 min nəfərinə cəmi 20,17 vəkil düşüb. Bu, Avropa Şurasına üzv dövlətlər arasında ən aşağı göstəricilərdən biridir (2020-ci ildə Avropa üçün median göstərici əhalinin 100 min nəfərinə 131,1 vəkil olub).[37] Vəkillər kollegiyasına qəbul olunmaq çətindir, çünki Kollegiyaya qəbul edilənə qədər hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajı tələbi çox uzun hesab olunur və insanları bu peşədən kənarda qoyur.[38] Üstəlik, insanların vəkillə əlaqə saxlaması daha da çətinləşib. Onlar yerli məhkəmə binalarında otaqlarda oturur və insanlar onların əlçatanlığının və mehribanlığının daha aşağı səviyyədə olduğunu hesab edir. Sonuncusu, kənd ərazilərində vəkillərin dolanışığı çətin olduğu üçün onlar öz xidmətlərini əsasən paytaxtda təklif edirlər.[39] Xidmətlərinə görə ödənişin aşağı olması da bir çox vəkillərin hüquqi yardım istəyən müştəriləri ilə görüşmək üçün ucqar ərazilərə getmək istəməməsinin səbəblərindən biridir.

### *D. Hüquqi yardımın benefisiarları*

Xidmətlərin əhatə dairəsi və hüquqi yardımın benefisiarları ilə bağlı bir sıra problemlər mövcuddur. Şərtlərin hansı xidmət növlərinə şamil olunması, hansı növ ərizəçilərin hüquqi yardım almaq hüququna malik olduğu barədə heç bir aydın təlimat yoxdur. İnzibati Xətalar Məcəlləsində şəxsin "imkanı olmaması" şərtləri aydınlaşdırılmır. Hüquqi yardım üçün müraciət etmək üçün maddi baxımdan uyğunluq həddinin çox sərt olduğu da bildirilib. Ərizəçinin hüquqi yardım almaq hüququnun olub-olmadığını, onun maddi vəziyyətini yoxlamaq üçün əlavə sənədlər təqdim etməli olub-olmadığını və ya nə vaxt vəkillə görüşməli olduğunu müəyyən etmək üçün xidmət təminatçılarına heç bir təlimat verilmir.

---

[36] Aliyev, Intigam (2022) *The Bar and lawyers in Azerbaijan (Azərbaycanda Vəkillər Kollegiyası və Vəkillər)* (London, International Bar Association). s.6

[37] CEPEJ (2020) 'Dynamic database of European judicial systems: Azerbaijan'. (*Avropa ədliyyə sistemlərinin dinamik məlumatlar bazası: Azərbaycan*) *CoE*. https://public.tableau.com/app/profile/cepej/viz/OverviewEN/Overview. Həmçinin bax: Christophe Poirel (2018) 'Azerbaijan has 15 times fewer lawyers than the European average' (*Azərbaycanda vəkillərin sayı Avropanın orta göstəricisi ilə müqayisədə 15 dəfə azdır*). *Meydan TV* (16 noyabr).

[38] Aliyev, Intigam (2022) *The Bar and lawyers in Azerbaijan (Azərbaycanda Vəkillər Kollegiyası və Vəkillər)* (London, International Bar Association). s.10

[39] Aliyev, Intigam (2022) *The Bar and lawyers in Azerbaijan (Azərbaycanda Vəkillər Kollegiyası və Vəkillər)* (London, International Bar Association). s.6

***E. Hüquqi yardım xidmətinin təminatçıları***

Məlumatların sistemli şəkildə toplanmaması Azərbaycanda xidmət keyfiyyətinin qiymətləndirilməsində çətinlik yaradır. Bundan əlavə, bütün hüquqi yardım təminatçılarına tətbiq olunan vahid təlimatlar yoxdur. Mülki-Prosessual Məcəllənin 14-cü maddəsinin 5-ci bəndi xidmətin keyfiyyətini təmin etməyi tələb edir. Bəzi QHT-lərin müəyyən təlimatlar hazırlaması müsbət hal olsa da, vəkillər hüquqi yardımın göstərilməsinə dair təlimatlara tam riayət etmirlər. Hüquqi yardım üzrə işlərlə məşğul olmaq üçün Vəkillər Kollegiyanın yazılı və şifahi testdən ibarət imtahanından keçməlidirlər. Etibarlı keyfiyyət təminatı mexanizmi mövcud deyil. Qanunda Vəkillər Kollegiyası tərəfindən hüquqi yardım işi üçün seçilən vəkillərin fəaliyyətinin hansı meyarlar əsasında qiymətləndirildiyi göstərilmir. Kollegiya vəkillərə insan hüquqları məsələləri də daxil olmaqla, müxtəlif mövzular üzrə davamlı hüquqi təlim təşkil edir. Vəkillər Ədliyyə Nazirliyi tərəfindən yaradılmış “E-qanun” adlı tətbiq vasitəsilə yeniliklərdən daim xəbərdar olurlar. Bu tətbiq hüquqi aktları axtarıb tapmağa və istifadəçiləri ən son hüquqi yeniliklər barədə məlumatlandırmağa imkan verir. Vəkillərdən başqa digər hüquqşünasların, yəni Kollegiyaya qəbul edilməyən təminatçıların (məsələn, QHT-lərlə işləyən hüquq məsləhətçiləri) qanunla minimum ixtisas və təcrübəyə malik olmaları tələb olunmur. Lakin bəzi QHT-lər məsləhətçilərin fəaliyyətini qiymətləndirmək üçün müştəri məmnuniyyəti sorğularından istifadə edirlər (məsələn, müştərilərlə telefon danışıqları şəklində).

Qanuna əsasən hüquqi məsləhət və hüquqi təmsilçiliyi yalnız vəkillər həyata keçirə bilər. Bildirilib ki, hüquqi yardımla bağlı müraciət edənlər vəkillərə çox gec yaxınlaşırlar və həssas qrupların (onları “səbirsiz” kimi qələmə verirlər) sayı və ehtiyacları vəkilləri yükləyir. Ümumiyyətlə, vəkillər bu cür işlərlə məşğul olmağa həvəsli deyillər. Vəkillərin sayı həddən artıq azdır və Hökumət 2018-ci ildə hüquqi yardım işi üçün ödənişləri bir qədər artırsa da (saatda təxminən 3 avroya), vəkillər digər Avropa ölkələri ilə müqayisədə hüquqi yardım işi üçün çox az ödəniş alırlar.[40] Bundan əlavə, vəkillər həssas qrupların ehtiyaclarının necə həll edilməsi ilə bağlı aydın təlimatlarla təmin edilməyib. Onlar həssas qruplara mütəxəssis məsləhəti vermək üçün lazımi hüquqi və ünsiyyət bacarıqlarına malik deyillər. Vəkilləri həssas qrupların ehtiyaclarına qarşı həssaslaşdırmaq üçün təlim proqramları mövcuddur. Bu proqramlar Vəkillər Kollegiyası tərəfindən, habelə BMTİP və bəzi QHT-lərlə əməkdaşlıqda təklif olunur.

[40] CEPEJ (2020) ‘Dynamic database of European judicial systems: Azerbaijan’. (*Avropa ədliyyə sistemlərinin dinamik məlumatlar bazası: Azərbaycan*) *CoE*. https://public.tableau.com/app/profile/cepej/viz/OverviewEN/Overview.

**III bölmə: Təhlil**

Bu hesabatın III bölməsi digər ölkələrin hüquqi yardım sahəsində müvafiq nümunəvi təcrübələrini araşdırır və bu cür nümunələrin Azərbaycan kontekstinə necə uyğun ola biləcəyini təhlil edir. Bu nümunəvi təcrübələr əsasən dörd əsas sahəni əhatə etməklə, hüquqi yardıma dair mövcud beynəlxalq standartlardan, digər AŞ ölkələri və digər region ölkələrinin təcrübələrindən götürülüb: hər kəsin xidmətə asan və operativ çıxışının təmin edilməsi; həssas qrupları həqiqətən ehtiyac duyduqları yardımla təmin etmək üçün müxtəlif hüquqi yardım təminatçıları arasında əməkdaşlıq; həssas qruplara onları dəstəkləyən və səlahiyyətlərini artıran xidmətin təqdim olunmasını təmin etmək üçün keyfiyyət təminatı; qarşıdakı illərdə Azərbaycanın hüquqi yardım sisteminin dayanıqlılığını qoruyub saxlamaq üçün xidmətin iqtisadi səmərəliliyi.

***A. Xidmətlərin müyəssərliyi***

Bu bölmədə bütün insanlar üçün hüquqi yardım xidmətlərinə asan və operativ çıxışın necə təmin edilə biləcəyi və onlara təklif olunan xidmətlər barədə məlumatlılıq səviyyəsinin artırılmasına nəzər salınır.

***1. Xidmətin normativ-hüquqi bazası***

a) Uyğunluq hədləri

*aa) Hüquqi yardımın resipiyentləri*

Hüquqi yardımın əlçatanlığının mühüm cəhətlərindən biri bu yardımı almaq üçün şərtlərin sadəliyini təmin etməkdir.

İnzibati Xətalar Məcəlləsində ərizəçilərin hüquqi yardım almaq üçün maddi baxımdan uyğunluğunu ölçmək üçün qeyri-müəyyən məfhum (“imkanı olmadıqda”) işlənir ki, bu da ərizəçilərin hüquqi yardım almaq hüququnun olub-olmadığını müəyyən etməkdə həm ərizəçilərin özləri, həm də xidmət təminatçıları üçün çətinlik yaradır. Azərbaycan Hökuməti tərəfindən koronavirus pandemiyasında olduğu kimi məlumatlar bazasının yaradılması şəxslərin hüquqi yardım üçün maddi baxımdan uyğunluğunu müəyyən etmək baxımından faydalı ola bilər. Lakin hazırkı qanunvericilik hüquqi yardımın resipiyentlərini konkret göstərmir. Məsələn, Niderland, Böyük Britaniya və Ukraynada maddi baxımdan vahid uyğunluq həddi tətbiq olunur və bütün ölkədə kimlərin hüquqi yardım ala biləcəyini müəyyən etmək üçün istifadə edilir. Niderlandda[41] insanların hüquqi yardım üçün uyğunluğunu qiymətləndirmək üçün onların hüquqi yardım üçün müraciətindən iki il öncə mövcud olan əmlak kimi aktivlərinə və gəlirlərinə nəzər salınır. Bu il üzrə məlumatların istifadəsinin səbəbi ondan ibarətdir ki, onların adətən düzgün olduğu və qəti olduğu müəyyən edilib. İnsanların gəlirləri və aktivləri barədə məlumatlar vergi orqanı tərəfindən verilir. Böyük Britaniyada da oxşar yanaşma tətbiq edilir: ərizəçinin həm kapitalı (məsələn, yığımları), həm də ümumi və sərəncamda qalan gəlirləri yoxlanılır. Ər-arvadın aktivləri, habelə ailənin ölçüsü nəzərə alınır[42]. Türkiyədə yerli hakimiyyət orqanları ərizəçinin hüquqi yardım almaq üçün uyğunluğunu onun təqdim etdiyi sənədlərin əsasında qiymətləndirir. Bura ərizəçinin şəxsiyyətini, müraciət səbəbini və maddi imkanının olmadığını təsdiq edən sənədlər daxildir.[43] Ukraynada qanunla müəyyən edilmiş 13 “həssas qrup”a, o cümlədən uşaqlar, məişət zorakılığından zərər çəkmiş şəxslər, əlilliyi olan şəxslər və aşağı gəlirli (hər il parlament tərəfindən müəyyən edilən minimum əmək haqqına əsasən müəyyən edilir) insanlar hüquqi yardım ala bilərlər.[44]

[41] Het Juridisch Loket (2021) ‘Ik kan de mediator of advocaat niet betalen. Krijg ik een toevoeging?’ https://www.juridischloket.nl/hoe-we-werken/advocaat-nodig/toevoeging-advocaat/.
[42] https://www.gov.uk/legal-aid/eligibility
[43] https://www.lw.com/admin/Upload/Documents/Global%20Pro%20Bono%20Survey/pro-bono-in-turkey.pdf.
[44] https://www.legalaid.gov.ua/

Hər bir termin üçün dəqiq tərifin müəyyən edilməsi hər zaman mümkün olmaya bilər. Lakin Azərbaycan qanunvericiliyi hər hansı əlavə izahat nəzərdə tutmur. Məsələn, bu, hüquqi yardım kontekstində istifadə edilən məfhumlar və ifadələrə dair konkret nümunələrin təqdim olunduğu izahlı qeyd formasında ola bilərdi. Bu cür izahlı qeyd məfhumların və ifadələrin şərhi üçün əlavə alət kimi çıxış edərək, mühüm işlərin xülasəsini təmin edə və/yaxud milli məhkəmələrin və beynəlxalq insan hüquqları orqanlarının müvafiq hüquqi praktikasına istinad edə bilər. Bu, İnzibati Xətalar Məcəlləsində hüquqi yardımla bağlı müddəaların aydın olmadığı hallarda hüquqi yardım göstərənlərin köməyinə gələ bilər.

*<u>1-ci tövsiyə:</u> Mülki-Prosessual Məcəllədə və İnzibati Xətalar Məcəlləsində hüquqi yardım ala biləcək qrupları təsvir etmək üçün istifadə edilən termin və ifadələri aydınlaşdırmaq tövsiyə edilir (məsələn, hüquqi yardımı tənzimləyən əhatəli bir sənəd qəbul etməklə və əlavə şərh aləti kimi izahlı qeyd hazırlamaqla). Bu, hüquqi yardım təminatçılarına hüquqi yardım üçün potensial ərizəçiləri daha yaxşı müəyyən etməkdə kömək edəcək.*

*<u>2-ci tövsiyə:</u> Hüquqi yardım xidmətindən istifadəni asanlaşdırmaq məqsədilə, Mülki-Prosessual Məcəllədə və xüsusilə də İnzibati Xətalar Məcəlləsində hüquqi yardım almaq üçün göstərilən maddi uyğunluq meyarlarını daha da aydınlaşdırmaq tövsiyə edilir (məsələn, insanların gəlir və aktivlərinə əsasən onların hüquqi yardım üçün uyğunluğunu qiymətləndirməklə və ya müəyyən "həssas qrupa" daxil olması səbəbilə hüquqi yardım almaq hüququnu müəyyən etməklə).*

b) İlkin və ikinci səviyyəli hüquqi yardımın tərifi

Hüquqi yardım xidmətlərinə çıxış imkanının artırılması həm də hər bir şəxsə ilkin hüquqi yardım (hüquqi məlumatlandırma, ilkin hüquqi məsləhət və hüquqi yardım haqqında məlumatlandırma) və ikinci səviyyəli hüquqi yardımı (məhkəmə qarşısında hüquqi təmsilçilik) bir-birindən aydın şəkildə fərqləndirmək imkanının verilməsini ehtiva edir. Azərbaycanda mülki və inzibati işlər üzrə məhkəmə icraatında hüquqi yardıma dair cari hüquqi təminatlar Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun və Nazirlər Kabinetinin "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" qərarında dağınıq şəkildə təqdim olunur. Bu isə hüquqi yardım üçün müraciət edənlər və bu yardımı göstərənlər üçün hüquqi yardımın nəyi əhatə etməsi, bu yardımı kimin göstərməli olması və kimə göstərməli olması baxımından qeyri-müəyyənlik yaradır.

Buna görə də, bəzi milli hüquqi yardım çərçivələri ilkin və ikinci səviyyəli hüquqi yardımın tərifini təqdim edir. Burada hər iki xidmətin əhatə dairəsi və xidməti kimlərin ala biləcəyi, ilkin hüquqi yardım və ikinci səviyyəli hüquqi yardımın hansı növlərdə xidmətləri hansı hallarda əhatə etməsi, hər bir xidmətdən faydalanacaq şəxslərin qrupları və ilkin və ikinci səviyyəli hüquqi yardım göstərməsinə icazə verilən xidmət təminatçılarının növü aydın şəkildə müəyyən edilir. Məsələn, Niderlandda 30 "hüquqi xidmət masası" şəbəkəsi mövcuddur. Onlara Niderland Hüquqi Yardım Şurası tərəfindən nəzarət edilir və onun tərəfindən tam subsidiyalaşdırılır. Onların xidmət masaları bu cür köməyə ehtiyacı olan bütün insanlara ilkin hüquqi yardım xidmətləri göstərən hüquqi köməkçilər tərəfindən idarə olunur. Bütün digər xidmətlər, hüquqi məsləhət və qanuni təmsilçilik (ikinci səviyyəli hüquqi yardım) üçün vəkilə göndəriş tələb olunur. Əgər şəxsin vəkilə pul ödəməyə maddi imkanı yoxdursa, əməkdaşlar insanların hüquqi yardım almaq hüququna malik olub-olmadığını da yoxlayır.[45] Eynilə, Almaniyada hər bir şəxsə ilkin hüquqi yardım xidmətləri göstərən ictimai hüquqi məsləhətxanalar şəbəkəsi mövcuddur. Məsələn, Hamburq şəhərində bu xidməti şəhərin 20 hüquqi məsləhətxanası ("Öffentliche Rechtsauskunft") təklif

[45] https://www.juridischloket.nl/.

edir. Onlar həmçinin insanlara formaların doldurulmasında, səlahiyyətli orqanlara məktubların hazırlanmasında və məsləhətxanalar tərəfindən köməklik göstərilə bilmədikdə (məsələn, sorğu çox mürəkkəbdirsə və buna görə də vəkilin hüquqi yardımına ehtiyac olduqda) səriştəli vəkil tapmaqda kömək edirlər.[46]

İlkin və ikinci səviyyəli hüquqi yardım xidmətləri arasında belə aydın fərqləndirmə hazırda Azərbaycan qanunvericiliyində əksini tapmır. Buna görə də, milli hüquqi yardım çərçivəsinə yenidən baxmaq və ilkin və ikinci səviyyəli hüquqi yardımın tərifini daxil etmək məqsədəuyğun olardı. Bu tərif ilkin və ikinci səviyyəli hüquqi yardımın əhatə etdiyi xidmətlərin növlərini və ilkin hüquqi yardım xidmətlərinin göstərilməsi üçün heç bir şərtin olmadığını təsvir etməlidir. Bütün insanlara ilkin hüquqi yardım xidmətlərinin göstərilməsi Azərbaycan hökumətinin, ədalət mühakiməsinə çıxış hüququna təminat verən Konstitusiyaya sadiqliyini nümayiş etdirərdi. Bundan əlavə, tərifdə ilkin və ikinci səviyyəli hüquqi yardım xidmətlərini göstərməsinə icazə verilən xidmət təminatçılarının növləri qeyd edilməlidir. Çünki Azərbaycanın sistemi ilkin hüquqi yardım xidmətlərinin vəkillər, dövlət qulluqçuları, hüquqi köməkçilər, QHT-lər və hüquq sahəsində təhsil alan tələbələr tərəfindən göstərilə bildiyi qarışıq modeli tanıyır. "İkinci səviyyəli hüquqi yardımın əhatə dairəsinə daxil olmayan digər xidmətlər"in də ilkin hüquqi yardımla əhatə olunduğunu göstərən mətnin əlavə edilməsi məqsədəuyğun ola bilər. Bu, Azərbaycanın ilkin hüquqi yardım sisteminin kifayət qədər uyğunlaşma qabiliyyətini təmin edər, bu sistemə daha sonrakı mərhələdə "qeyri-ənənəvi" fəaliyyətlərin də əlavə edilməsinə imkan verərdi (məsələn, mediasiya xidmətləri və interaktiv özünəyardım alətləri).

*3-cü tövsiyə: İlkin və ikinci səviyyəli hüquqi yardımın tərifini hazırlamaq tövsiyə olunur. O, ilkin və ikinci səviyyəli hüquqi yardımın əhatə etdiyi xidmətlərin növlərini, xidmətdən kimlərin faydalana biləcəyini, ilkin və ikinci səviyyəli hüquqi yardımı hansı növ xidmət təminatçılarının göstərə biləcəyini aydın şəkildə göstərməlidir. Bu cür tərif hüquqi yardımın təminatçılarında və benefisiarlarında xidmətdən gözləntilərinə dair daha çox müəyyənlik yaradacaqdır. Bundan əlavə, bu tərifə Azərbaycanın ilkin hüquqi yardım sisteminin çevik uyğunlaşma qabiliyyətini təmin etmək üçün "ikinci səviyyəli hüquqi yardımın əhatə dairəsinə daxil olmayan digər xidmətlər"in ilkin hüquqi yardıma daxil olduğunu göstərən mətn də əlavə edilə bilər.*

### *2. Xidmətin təbliği*

Gürcüstan, Niderland və Ukrayna kimi digər ölkələr insanları, xüsusilə həssas qrupları onlar üçün nəzərdə tutulan ilkin və ikinci səviyyəli hüquqi yardım xidmətlərinin mövcudluğu barədə məlumatlandırmaq üçün müxtəlif tədbirlərdən istifadə edirlər. Həssas qruplar fiziki və psixoloji maneələr səbəbindən (məsələn, hüquqi məsləhətxanaların və məhkəmələrin lifti olmadığı üçün fiziki cəhətdən əlçatan olmaması və ya ucqar ərazilərdə hüquqi yardım xidmətlərinin göstərilməməsi) səbəbindən ədalət mühakiməsi üçün müraciət etməkdən daha çox çəkinirlər. Beləliklə, ölkələr bütün insanların, o cümlədən ucqar ərazilərdə yaşayan icmaların ölkə daxilində hüquqi yardım xidmətləri haqqında kifayət qədər məlumatlı olmasını təmin edirlər. Məsələn, Ukraynada hökumət "Hüquqi yardım hər zaman yaxındadır" adlı kampaniyaya başlamaqla bu istiqamətdə nəzərəçarpan dərəcədə səy göstərib. Kampaniya hüquqları pozulmuş ukraynalıların onların həyatındakı ən aktual problemlərə (məsələn, məişət zorakılığı, boşanma) toxunması nümayiş olunur. Kampaniya plakatlar, broşuralar və milli və yerli telekanallarda yayımlanan, kinoteatrlarda nümayiş etdirilən və sosial media platformalarında geniş şəkildə paylaşılan video çarxlar vasitəsilə ictimaiyyətin diqqətini yüksək dərəcədə çəkir. Bu materiallar, həmçinin, hüquqi yardım xidməti ilə əlaqə vasitələrini (milli qaynar xətt, xidmətin veb-saytı, QR kodu) təqdim edir. Bundan əlavə, Ukraynada böyük şəhərləri, kiçik qəsəbələri və ucqar kəndləri əhatə edən hüquqi yardım məsləhətxanaları şəbəkəsi mövcuddur. Onlar üzbəüz və ya telefonla ilkin hüquqi yardım xidmətləri təmin edir. Belə məsləhətxanaların olmadığı regionlardakı insanları əhatə etmək üçün hüquqi yardıma məsafədən çıxış məntəqələri (məsələn, xəstəxanalarda)

[46] https://www.hamburg.de/oera/.

yaradılıb.[47] Gürcüstanda hüquqi yardım təminatçıları (hüquqi yardım məsləhətxanalarında və tərəfdaş QHT-lərlə işləyən vəkillər və hüquqi köməkçilər) hüquqi yardım haqqında məlumatlılığı artırmaq üçün məktəblilər və icma sakinləri üçün mütəmadi məlumatlandırma kampaniyaları təşkil edirlər. Onlar yerli hakimiyyət orqanları və digər qurumlarla görüşlər təşkil edir, icma tədbirlərində iştirak edir və ucqar ərazilərdə yaşayan insanlar üçün səyyar məsləhət sessiyaları təşkil edirlər. Nəticədə, Gürcüstanda ilkin hüquqi yardımdan yararlananların sayı bəzi əyalətlərdə 80% artıb.[48]

Bundan əlavə, hüquqi yardıma çıxışın artırılması o deməkdir ki, hüquqi yardıma ehtiyacı olan insanlar həqiqətən ehtiyac duyduqları xidmətlərdən istifadə edə bilirlər və əhaliyə, o cümlədən həssas qruplara bu xidməti göstərmək üçün kifayət qədər hüquqi yardım təminatçısı var. Smartfonların geniş istifadə olunduğu bir çox ASEAN ölkələrində müxtəlif mobil tətbiqlər hazırlanmışdır. Məsələn, Filippində "Legal tree" onlayn platforması insanları vəkillə əlaqələndirir. Bunun səbəbi hüquqi yardıma ehtiyacı olan filippinlilərin 80%-nin bu yardıma çıxışının olmamasıdır. Hər 2200 filippinliyə üçün yalnız bir vəkil düşür. Halbuki optimal vəkil sayı hər 250 filippinliyə 1 vəkilin düşməsidir. "Legal Tree" platforması Filippin üzrə 100-dən çox fərdi vəkillə əməkdaşlıq edir. Hüquqi xidmətlərə ehtiyacı olan şəxslər "Vəkildən soruş" xidməti vasitəsilə platformaya sual göndərə bilərlər. İki gün ərzində "Legal Tree" platforması 'tərəfdaş vəkillər' kataloqundan münasib vəkili seçəcək. O, vəkilin yerini və ixtisaslaşma sahəsini nəzərə alacaq. Bundan sonra vəkil istifadəçi ilə telefon və ya videokonfrans vasitəsilə əlaqə saxlayacaq.[49] Vyetnamda əlilliyi olan şəxslərin hüquqları ilə məşğul olan bir QHT tərəfindən 'DLAW' tətbiqi yaradılıb. Məqsəd digər rabitə kanallarının əhatə edə bilmədiyi əlilliyi olan şəxslərin vəkillə əlaqə qurmasına imkan vermək idi. Mobil tətbiq, həmçinin, istifadəçiləri sorğularına uyğun ola biləcək hüquqi sənədlər və siyasətlər haqqında əlavə məlumat əldə etmək üçün QHT-nin veb-saytı və Facebook səhifəsi ilə əlaqələndirir.[50] Oxşar xidmət İndoneziyada məişət zorakılığı qurbanlarını vəkillə əlaqələndirən "Justika" tətbiqi tərəfindən təmin edilir.[51]

Azərbaycanda hazırda əhalini, xüsusən əlilliyi olan şəxslər və ucqar ərazilərdə yaşayanlar kimi həssas qrupları əhatə etmək üçün istifadə edilən bir çox rabitə kanalları qeyri-effektivdir. Üstəlik, kənd yerlərində insanların internetə çıxışı yoxdur və ya genişzolaqlı internet sürəti aşağıdır, vəkil çatışmazlığı var və ucqar kəndlərdə yaşayan insanlara hüquqi yardım xidməti göstərmək istəyən vəkillərin sayı azdır. Buna görə də, ilk növbədə, hüquqi yardım təminatçılarının işinin insanlar, o cümlədən həssas qruplar tərəfindən "görülməsini" təmin etmək vacibdir. Azərbaycanda internetə çıxışın vəziyyətini nəzərə alsaq, buna müxtəlif üsullarla nail olmaq olar: məsələn, Vəkillər Kollegiyası, ASAN, QHT-lər və hüquq klinikaları tərəfindən idarə olunan mövcud xidmətlərin binaları plakatlarla nişanlamaqla; sosial mediada və televiziya verilişlərində bütün insanların ehtiyaclarına uyğunlaşdırılmış məlumatlandırma kampaniyaları təşkil etməklə; yerli əhalinin tez-tez getdiyi yerlərdə hüquqi yardım üçün məsafədən çıxış məntəqələri yaratmaqla (məsələn, yerli poçt şöbəsində hüquq məsləhətçilərinin insanlara hüquqi yardım xidmətləri təklif edə biləcəyi masanın təşkili) və Vəkillər Kollegiyası və QHT-lər tərəfindən ucqar icmalar üçün təşkil edilən səyyar sessiyaların sayını artırmaqla. Məlumatlar milli azlıqları da əhatə etmək üçün Azərbaycan dilindən başqa dillərdə də təqdim edilməlidir. İkincisi, ixtisaslı vəkillərin sayının azlığı və həssas qrupların hüquqi yardım xidmətindən istifadə etməsinə mane ola biləcək görünməz maneələrin öhdəsindən gəlmək üçün mövcud qaynar xətlərin və İT vasitələrinin daha çox tanıdılması məqsədəuyğundur. Bu cür tədbirlər xidməti bütün insanlar, xüsusilə əlilliyi olan şəxslər və digər həssas qruplar, o cümlədən vaxtı, maddi imkanı olmayan və/yaxud formal hüquq sistemlərinin mürəkkəbliyindən çəkinən qadınlar üçün daha əlçatan edəcək.

---

[47] Quality and accessible legal aid in Ukraine project (2018) 'Free legal aid is always nearby' ("*Pulsuz hüquqi yardım hər zaman yaxınlıqdadır*".) *QALA*, 12 June http://qala.org.ua/en/news/free-legal-aid-is-always-nearby-an-information-campaign-on-the-right-to-free-legal-aid-was-presented/.

[48] Legal Aid Service (2010) *Annual report 2010* (*2010-cu il üzrə illik hesabat*) (Tbilisi, Legal Aid Service).http://www.legalaid.ge/en.

[49] Birləşmiş Millətlər Təşkilatı (2019) 'Access to justice project' (Ədalət mühakiməsinə çıxış layihəsi).https://sustainabledevelopment.un.org/partnership/?p=33320. ADD BIB

[50] Disability Research and Capacity Development (2020) 'Legal aid DLAW'. *DRD Vietnam*. https://www.drdvietnam.org/en/du-an/tro-giup-phap-ly-dlaw.html.

[51] https://www.justika.com/koneksi

*<u>4-cü tövsiyə:</u> Mövcud hüquqi yardım mərkəzlərinin binalarının müvafiq plakatlarla nişanlanması kimi vasitələrlə onların daha çox tanınmasını, diqqət çəkməsini təmin etmək, yerli əhalinin tez-tez getdiyi yerlərdə hüquqi yardım üçün məsafədən çıxış məntəqələri yaratmaq (məsələn, yerli poçt şöbəsində) tövsiyə edilir. Həmçinin, hüquqi yardım xidmətlərindən istifadədə fiziki və psixoloji maneələri aradan qaldırmaq üçün müxtəlif rabitə kanallarından istifadə etmək və insanları onlar üçün nəzərdə tutulan bu cür xidmətlərin mövcudluğu barədə məlumatlandırmaq tövsiyə olunur. Bu, həm də həssas qrupların və ucqar ərazilərdə yaşayan insanların xidmətdən daha yaxşı istifadə etməsinə imkan verəcək.*

### *B. Hüquqi yardım təminatçıları arasında səmərəli koordinasiya*

Məlumatların əlçatan olması həm də "doğru" yardımın təqdim olunmasını ehtiva edir. Müxtəlif hüquqi yardım təminatçıları arasında geniş əməkdaşlıq insanlara, xüsusilə həssas qruplara həqiqətən ehtiyac duyduqları xidmətə çıxış imkanı əldə etmək imkanı verir. Buna görə də bu bölmədə xidmət təminatçılarının birlikdə işləməsinin və bir-birindən öyrənmələrinin vacibliyi vurğulanır.

Ukrayna və Malayziya kimi digər Avropa Şurası və ASEAN ölkələrinin təcrübəsi göstərir ki, insanların hüquqi və ya digər problemləri ilə bağlı ehtiyac duyduqları dəstəyi almasını təmin etmək üçün hüquqi yardım təminatçıları arasında səmərəli koordinasiya vacibdir. Buraya hüquqi problemi müəyyən etmək üçün ilkin hüquqi yardım təminatçıları arasında koordinasiya , ilkin hüquqi yardım təminatçıları ilə digər xidmətlərin (məsələn, mediasiya, psixoloji yardım, təcili sığınacaq) təminatçıları arasında koordinasiya , eləcə də hüquqi problem ilkin hüquqi yardım təminatçısı tərəfindən həll edilə bilmədikdə (məsələn, problem çox mürəkkəbdir və ona vəkil baxmalıdır) ilkin hüquqi yardım təminatçıları ilə ikinci səviyyəli hüquqi yardım xidmətinin təminatçıları arasında koordinasiya daxildir. Beləliklə, xidmət təminatçılarının bir-birlərinin xidmətləri haqqında məlumatlı olmaları və bir şəxsə kömək edə bilməyəcəkləri təqdirdə "işi" hara yönləndirəcəklərini bilmələri çox vacibdir. Dəfələrlə başqa xidmətlərə yönləndirildikdə, insanların hüquqi problemlə bağlı kömək istəmək istəyi də azala bilər. Məsələn, Ukraynanın hüquqi yardım sisteminin mühüm xüsusiyyətlərindən biri müxtəlif hüquqi yardım təminatçıları (hökumət orqanları, vəkillər, QHT-lər, hakimlər, hüquq-mühafizə orqanları, sosial işçilər, hüquqi köməkçilər, hüquq klinikaları və mediatorlar) arasında güclü əməkdaşlığın olmasıdır. Onlar arasında dialoqun gücləndirilməsi üçün "hüquq klubları" formasında şəbəkələşmə platforması yaradılıb. Bu klublar Ukraynanın beş ən böyük şəhərində strateji şəkildə yerləşdirilib. Onlar mövcud hüquqi yardım xidmətləri haqqında məlumatlılığın artırılması, təcrübə mübadiləsinin aparılması və iştirakçı maraqlı tərəflər arasında nümunəvi təcrübələrin yayılması üçün əlaqələndirici mərkəz kimi çıxış edirlər.[52] Malayziyada Vəkillər Kollegiyasının hüquqi yardım mərkəzi həssas qruplara dəstək göstərən QHT-lərlə sıx əməkdaşlıq edir. Onlar Vəkillər Kollegiyasının lazımi təcrübəyə malik olmadığı hallarda yardım göstərirlər. Vəkillər Kollegiyası ilə əməkdaşlıq edən QHT-lərə, məsələn, miqrant işçilərin hüquqları ilə məşğul olan "Tenaganita" təşkilatı[53] və qadın hüquqları təşkilatları, məsələn, "Bütün Qadınlar üçün Fəaliyyət Cəmiyyəti"[54], "Qadınlara Yardım Təşkilatı"[55] və "İslamda Bacılar"[56] daxildir.

Azərbaycanda müxtəlif hüquqi yardım təminatçıları (ARVK, ASAN, fərdi vəkillər, QHT-lər, mediatorlar, hüquq klinikaları) mövcuddur, lakin əksər təminatçıların digər hüquqi yardım təminatçılarının təqdim etdiyi xidmətlər haqqında məlumatlılığı azdır və ya ümumiyyətlə yoxdur. Bundan əlavə, ASAN xidmət mərkəzləri kimi dövlət təminatçıları da mövcuddur ki, onlar bütün diqqətlərini hüquqi yardım xidmətlərinin göstərilməsinə yönəldə bilmirlər. Onların hüquqi yardım göstərməklə yanaşı başqa vəzifələri də var və buna görə də insanlara dərin hüquqi məsləhətlər verməyə vaxtları yoxdur.

[52] http://pravokator.club/en/
[53] https://m.facebook.com/TenaganitaMY/
[54] https://www.awam.org.my/
[55] https://wao.org.my/
[56] https://sistersinislam.org/

Nəticədə, Azərbaycanda insanlar ehtiyac duyduqları dəstəyi almaya bilər və bir neçə dəfə digər xidmətlərə yönləndirilə (əgər göndəriş xidməti varsa) bilərlər. Digər AŞ ölkələrinin və digər regionların ölkələrinin (məsələn, Avstraliya) təcrübəsi göstərir ki, Azərbaycanın hüquqi yardım sisteminin insanların, xüsusən də həssas qrupların ehtiyaclarına cavab vermək qabiliyyəti digər hüquqi və qeyri-hüquqi xidmət qurumları ilə tərəfdaşlıq yolu ilə təkmilləşdirilə bilər. Buna görə də, Vəkillər Kollegiyasının rəhbərliyi altında, insanların istədikləri hüquqi və ya digər yardımı almaq üçün yönləndirilə biləcəyi hüquqi yardım təminatçıları şəbəkəsinin - yönləndirmə/göndəriş sisteminin yaradılması məqsədəuyğun olardı. Bu şəbəkənin üzvü olan təminatçıların bu şəbəkəyə məhdudiyyətsiz çıxış imkanı ola bilər və ya onlardan müəyyən üzvlük meyarlarına cavab verməleri tələb oluna bilər. Ukrayna və Böyük Britaniyada minimum keyfiyyət səviyyəsini təmin etmək üçün təcrübə, bacarıq, ixtisaslaşma və müvafiq təminatçının hüquqi yardım üzrə baxdığı işlərin sayı kimi üzvlüyə qəbul meyarları istifadə edilir. Bu, yalnız etibarlı təminatçıların bu şəbəkəyə qoşulmasını təmin edir. Xüsusilə, əgər "iş" həssas qruplara daxil olan bir şəxslə bağlıdırsa, bu cür üzvlük meyarları nəzərdən keçirilməlidir. Bundan əlavə, yönləndirmə edənlər müvafiq təlimdən keçməlidir. Bir sıra ölkələrdə, məsələn, Avstraliyada, yönləndirmə edənlər üçün təlimat kitabçaları (kağız və elektron formada) mövcuddur ki, bu da onlara yönləndirmə qaydası barədə istiqamət verir.[57] Onlar yönləndirmə edənlərə yönləndirmə formasını necə doldurmağı öyrədir və hüquqi və qeyri-hüquqi məsələlərin necə ayırd edilməsi, ümumi və ya mütəxəssis dəstəyinə ehtiyacın olması, sorğunun təciliyi və ərizəçilərin həssaslığı kimi mövzuları əhatə edirlər.

Azərbaycanda insanlar əlaqələndirilə (başqa təminatçının əlaqə məlumatları verilir) və ya yönləndirilə bilər (başqa təminatçı ilə əlaqəni asanlaşdırmaq üçün addımlar atılır). İnsanlara, məsələn, müəyyən bir təminatçıya yönləndirmə/göndəriş vərəqi və ya seçə biləcəkləri yerli təminatçıların siyahısı verilə bilər. Həssas qrupa daxil olan bir şəxsə daha çox köməklik göstərilməlidir (məsələn, onun üçün telefon danışıqlarının təşkili). Yönləndirmə edənlərin təminatçı axtarışını asanlaşdırmaqdan ötrü, ən çox qarşıya çıxan məsələlər (sosial müavinətlər, ailə məsələləri, məişət zorakılığı və s.) üzrə təminatçıların siyahıları hazırlana bilər. Bundan əlavə, insanlara "doğru" təminatçını tapmaqda kömək etmək üçün ABŞ-da olduğu kimi, yönləndirmələr üzrə qaynar xətt[58] və/yaxud təminatçıların məlumatlarının (yerləri, ixtisaslaşma sahəsi və s.) təqdim olunduğu onlayn portalın[59] yaradılması nəzərdə tutula bilər. Lakin, sonuncunun müntəzəm olaraq yenilənməsi tələb olunur və bu cür portallara daxil olmaqda çətinlik çəkən həssas qruplar da daxil olmaqla hər bir istifadəçi üçün uyğun olmaya bilər.

*<u>5-ci tövsiyə:</u> İnsanların adekvat hüquqi və qeyri-hüquqi yardımı almasını təmin etmək üçün Vəkillər Kollegiyasının rəhbərliyi altında yönləndirmə/göndəriş sisteminin yaradılması tövsiyə olunur. İnsanların göndəriş əsasında yönləndirildiyi təminatçı tərəfindən ilkin səviyyədə keyfiyyətli xidməti təmin etmək üçün yalnız müəyyən qəbul meyarlarına cavab verən təminatçılara yönləndirmə sisteminə qoşulmaq icazəsi verilməlidir. Daha çox yardıma ehtiyacı ola biləcək həssas qrupların ehtiyaclarına xüsusi diqqət yetirilməlidir.*

*<u>6-cı tövsiyə:</u> Yönləndirmə edən əməkdaşların digər təminatçıya yönləndirmələrin edilməsi qaydası barədə lazımi hazırlıq keçməsi tövsiyə olunur. Bu məqsədlə, yönləndirmə vərəqinin necə doldurulması, şəxsin həssaslığının müəyyən edilməsi qaydasını və s. izah edən təlimat kitabçası hazırlana bilər.*

---

[57] Məsələn, bax: Kingsford Legal Centre (2006) (Yönləndirmə kitabçası) (Sydney, Kingsford Legal Centre). https://www.klc.unsw.edu.au/sites/default/files/documents/Referral_Roundabout.pdf.

[58] Məsələn, bax: Legal Aid Society of Mid-New York (2021) 'Referral hotline' (*Yönləndirmə üzrə qaynar xətt*), https://www.lasmny.org/disablility-advocacy.

[59] See, for example, San Diego Law Library (2016) 'Legal information and referral list' (H*üquqi məlumat və yönləndirmə siyahısı*)https://sandiegolawlibrary.org/wp-content/uploads/wpmc-trash/2015/07/2015_Legal_Info_Referral_List.pdf.

### *C. Xidmətin keyfiyyət təminatı*

Bu bölmədə effektiv və səmərəli olan, həssas qrupları dəstəkləyən və onların səlahiyyətlərini artıran və xidmətdən istifadə edən insanların təcrübəsinə dəyər verən keyfiyyətli xidməti təmin etmək üçün hansı tədbirlərin görülə biləcəyinə nəzər salınır.

### *1. Hüquqi yardım üzrə səlahiyyətli orqan*

Azərbaycanda ilkin hüquqi yardım əsasən Vəkillər Kollegiyası və ASAN-ın dövlət tərəfindən maliyyələşdirilən xidmətləri çərçivəsində təmin edilir. Digər ilkin hüquqi yardım təminatçılarına QHT-lər və hüquq klinikaları daxildir. Hər bir təminatçı ilkin hüquqi yardımın təşkili və prosedurlarını özləri Vəkillər Kollegiyasının nəzarəti olmadan müstəqil şəkildə müəyyən edir. Bu cür "mərkəzsizləşdirmə" onunla əsaslandırılır ki, Kollegiya bu cür xidməti təşkil etmək üçün daha yaxşı imkanlara malikdir: yerli ehtiyaclar barədə məlumatlılıq və oxşar xidmətlərin təşkili təcrübəsi bura daxildir. Lakin, maraqlı tərəflərlə məsləhətləşmələrin nəticələri göstərir ki, dövlət tərəfindən maliyyələşdirilən xidmətin və QHT-lər kimi digər təminatçılar tərəfindən göstərilən xidmətin keyfiyyətində əhəmiyyətli fərqlər mövcuddur. Buna baxmayaraq, Azərbaycan mövcud sistemə əsaslanmalıdır. Hüquqi yardım təminatının qarışıq (hibrid) modeli çevik uyğunlaşma imkanı təklif edə və qadın və uşaqlar kimi cəmiyyətin ən həssas qruplarına diqqəti artıra bilər. Bununla belə, dövlət tərəfindən maliyyələşdirilən qurumların uzunmüddətli perspektivdə QHT-lər kimi digər təminatçılarla müqayisədə ilkin hüquqi yardımın göstərilməsində daha stabil olduğunu nümayiş oluna bilər.

### *2. Xidmətin keyfiyyət təminatı*

Bununla belə, Azərbaycanda bütün hüquqi yardım təminatçıları üçün hüquqi yardımın keyfiyyətini qiymətləndirmək və artırmaq, o cümlədən onların düşüncə tərzini dəyişmək və onları həssas qrupların ehtiyaclarına daha çox həssaslaşdırmaq üçün minimum standartlar toplusu yoxdur. Məsələn, AŞ Təlimatları hüquqi yardıma effektiv çıxışın təmin edilməsində keyfiyyət təminatının vacibliyini qeyd edir və dövlətlərdən bütün hüquqi yardım təminatçılarının öz işlərinin xarakterinə uyğun təhsil, təlim, bacarıq və təcrübəyə malik olmasını təmin edən mexanizm yaratmağı tələb edir.[60] Lakin Azərbaycanın qanunvericiliyi hüquqi yardım təminatçıları üçün bu cür keyfiyyət standartlarının hansı formada ola biləcəyini və onların necə həyata keçirilə biləcəyini (icbari qaydada tətbiq etməklə və ya təşviq etməklə) müəyyən etmir. Buna baxmayaraq, hüquqi yardımın ardıcıl həyata keçirilməsinə cavabdeh olan və idarəetmə qərarlarını (məsələn, Vəkillər Kollegiyasının BMTİHAK, Dünya Bankı və digər inkişaf tərəfdaşları ilə keçirdiyi layihələr çərçivəsində etdiyi kimi, hüquqi yardım təminatının yeni modellərinin sınaqdan keçirilməsi) müstəqil qəbul etmək səlahiyyətinə malik olan Vəkillər Kollegiyası digər hüquqi yardım təminatçılarına bu cür keyfiyyət standartlarını qəbul etməkdə köməklik göstərə bilər.

İlkin hüquqi yardıma gəldikdə, Latviya kimi digər Avropa İttifaqı ölkələrinin təcrübəsi göstərir ki, xidmət təminatçılarından keyfiyyət standartlarına, o cümlədən bütün təminatçılara şamil olunan xidmətin göstərilməsinə dair təlimatlara riayət etmələrini tələb etmək, icbari, dövri təlim və təminatçıların fəaliyyətinin müntəzəm qiymətləndirilməsi (hökumət və ya qeyri-kommersiya) təminatçıların insanlara dəstək göstərmək qabiliyyətini gücləndirə və əhalinin xidmət keyfiyyətinə inamını artıra bilər.[61] Hüquqi yardım təminatçıları öz işlərini, məsələn, göstərilən xidmətin əhatə dairəsi, təminatçının vəzifə və öhdəlikləri, fərdi işlərin idarə edilməsi, məxfilik siyasətləri və keyfiyyət standartlarına əməl etməmə üzrə prosedurlara dair tələbləri müəyyən edən peşəkar təlimatlarla uyğunlaşdırırlar. Bundan əlavə, hüquqi yardımın keyfiyyətini qoruyub saxlamaq üçün bacarıqlar və qanunvericilikdəki yeniliklərlə bağlı

---

[60] CEPEJ (2020) *Handbook for the one-stop advice service pilot project on legal aid in Latvia* (*Latviyada hüquqi yardıma dair "bir pəncərə" prinsipi əsasında məsləhət xidməti üzrə pilot layihə üçün masaüstü kitabça*)(Strasbourg, CoE); AŞ Təlimatları (2021), guidelines 7 and 9. Həmçinin bax: BMT-nin cinayət ədliyyəsi sistemlərində hüquqi yardıma çıxışa dair prinsipləri və rəhbər qaydaları, prinsip 13.

[61] UNODC (2016) *Global study on legal aid: Global report* (Hüquqi yardıma dair qlobal tədqiqat: qlobal hesabat) (Vienna: UNODC). p. 107, 114. Məsələn, bax: CoE Guidelines (2021), p.19-21 (*AŞ Təlimatları*).

davamlı təlimlər vacibdir. Təlimat kitabçaları (kağız və elektron formada) hüquqi yardım işçilərinə gündəlik işlərində kömək edir, həssas qruplarla ünsiyyət, onların problemlərinin öyrənilməsi qaydası, formaların doldurulması qaydası və s. kimi mövzuları əhatə edir.[62] Vəkillərin hüquqi yardım təminatçısı olmaq üçün minimum standartları rəhbər tutduqları bir çox AŞ ölkələrində və digər regionların ölkələrində ikinci səviyyəli hüquqi yardımın göstərilməsində bənzər yanaşma tətbiq olunur. Burada vəkillər fəaliyyət standartlarını anlamaq və daha yaxşı əməl etmək üçün mütəmadi olaraq təlimdən keçir, onlardan öz bacarıqları xaricində olan işləri götürməmək tələb olunur və həssas qrupların cəlb olunduğu işlər yalnız bu cür işlərlə məşğul olmaq üçün zəruri bilik, bacarıq və təcrübəyə malik olduğunu sübut edə bilən (məsələn, ixtisaslaşdırılmış təlimlərdə iştirak etməklə) vəkillərə ayrılır.[63]

Təqdirəlayiqdir ki, Vəkillər Kollegiyası, eləcə də bəzi QHT-lər digər təşkilatlar üçün müxtəlif təlim proqramları təqdim edir (məsələn, VK tərəfindən həssas əhali qruplarının hüquqi ehtiyacları ilə bağlı). Beləliklə, təcrübəsini və sosial media platformaları və digər kommunikasiya kanalları vasitəsilə hüquq mütəxəssisləri ilə əlaqə yaratmaq üçün əlverişli imkanlarını nəzərə alaraq, Vəkillər Kollegiyası öz rəhbərliyi altında və digər hüquqi yardım təminatçıları ilə əməkdaşlıq edərək, səylərini gücləndirməli və vəkillərin yükünü yüngülləşdirmək, potensialları gücləndirmək və vəkillərə həssas qruplarda inam yaratmaq və nüfuz qazanmağın yollarını öyrətmək məqsədilə öz üzvləri üçün icbari, akkreditasiyalı təlim proqramının hazırlanmasını nəzərdən keçirməlidir. Belə təlimin uğurla tətbiq olunduğu ölkələrə, məsələn, Ukrayna və Vyetnam daxildir. Ukraynada Hüquqi Yardım Təminatı üzrə Koordinasiya Mərkəzi Vəkillər Kollegiyası və partnyor QHT-lərlə əməkdaşlıq edərək bütün hüquqi yardım təminatçıları üçün maddi hüquq və bacarıqlara əsaslanan mövzular üzrə bir sıra icbari, akkreditasiyalı təlim kursları təklif edir. Vyetnamda isə təlim materialları hüquqi yardım məsləhətçilərinin Vyetnamın ən aktual hüquqi problemlərindən biri olan məişət zorakılığı qurbanlarına dəstək vermək bacarığının gücləndirilməsinə və məişət zorakılığının "şəxsi məsələ" olmadığı və qanunazidd olduğu barədə məlumatlılığın artırılmasına yönəlib.[64]

Azərbaycanda həmçinin ilkin və ikinci səviyyəli hüquqi yardım təminatının monitorinqi və qiymətləndirilməsi tələb oluna bilər. Bir çox AŞ ölkələrində xidmətin keyfiyyəti vaxtaşırı qarşılıqlı qiymətləndirmələr və insanların sistemə inamını yoxlamaq üçün məmnuniyyət sorğuları vasitəsilə qiymətləndirilir. Portuqaliyada Ədliyyə Nazirliyi hüquqi yardım alan şəxslərə sorğu anketi göndərir; Latviya kimi digər ölkələrdə isə hüquqi yardım mərkəzlərinin ziyarətçilərinə müştəri məmnuniyyəti sorğusu verilir. Bu sorğu könüllü olaraq yerində doldurula və ya daha sonra e-poçt, WhatsApp və ya sifarişli məktubla milli hüquqi yardım orqanına göndərilə bilər. Bundan əlavə, təminatçıların fəaliyyəti adətən müştərilərə qulluq standartlarına əməletmə, fərdi işin idarə edilməsi, təlim tədbirlərində iştirak və təminatçıya qarşı edilən şikayətlərin sayı kimi bir sıra aydın və obyektiv meyarlarla yoxlanılır.[65]

Hüquqi yardım təminatçıları, xüsusən də vəkillər üçün stimullaşdırıcı tədbirlərin tətbiqi Azərbaycanda xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına da kömək edə bilər. Nəticədə, xidmət təminatçıları işlərini yerinə yetirmək üçün daha həvəsli ola və ucqar ərazilərdə müştərilərlə görüşməyə daha çox həvəsli ola bilərlər.[66] Bu cür tədbirlərə əməyin adekvat ödənişi və yaxşı nəticələrə görə mükafat nəzərdə tutan hesabatlı və şəffaf fəaliyyətin qiymətləndirilməsi sisteminin yaradılması daxil ola bilər.[67] Məsələn,

---

[62] Bax, məsələn, CEPEJ (2020) *Handbook for the one-stop advice service pilot project on legal aid in Latvia* (Latviyada hüquqi yardıma dair "bir pəncərə" prinsipi əsasında məsləhət xidməti üzrə pilot layihə üçün masaüstü kitabça(Strasbourg, CoE).

[63] AŞ Təlimatları (2021), 20-ci qayda; ASEAN Intergovernmental Commission Human Rights (2019) *Thematic study on legal aid (Hüquqi yardıma dair tematik tədqiqat)* (Jakarta, ASEAN Secretariat). p. 15, 23.

[64] UNODC (2019) *Handbook on ensuring quality of legal aid services in criminal justice processes: practical guidance and promising practices (Cinayət işləri işləri üzrə məhkəmə icraatında hüquqi yardım xidmətlərinin keyfiyyətinin təmin edilməsi: praktiki tövsiyələr və perspektli təcrübələrə dair təlimat kitabçası)*. (Vienna: UNODC). p. 67.

[65] Məsələn, bax: Avrom Sherr et al (1994) *Lawyers*: The *Quality Agenda* (London, The Legal Aid Board).

[66]UNODC (2019) Handbook on ensuring quality of legal aid services in criminal justice processes: practical guidance and promising practices. (Vienna, UNODC). p. 21, 53.

[67] ASEAN Intergovernmental Commission on Human Rights (2019) *Thematic study on legal aid* (*Hüquqi yardıma dair tematik tədqiqat*) (Jakarta, ASEAN Secretariat). p.23

Fransa və Böyük Britaniyada, insanlara ədalət mühakiməsinə çıxış əldə etməyə kömək edən hüquq mütəxəssislərinin əzmi illik mükafat formasında mükafatlandırılır.[68]

*<u>7-ci tövsiyə:</u> Vəkillər Kollegiyasına səylərini gücləndirmək və öz rəhbərliyi altında və digər hüquqi yardım tərəfdaşları ilə əməkdaşlıq şəraitində ilkin və ikinci səviyyəli hüquqi yardımın göstərilməsi üçün minimum keyfiyyət standartları toplusu hazırlamaq tövsiyə olunur. Bu standartlar aşağıdakı məqsədləri daşımalıdır: vəkillərin üzərinə düşən yükü yüngülləşdirmək; hüquqi, məsləhət və rəqəmsal bacarıqlar sahəsində bacarıqları gücləndirmək; standartlaşdırılmış peşəkar təlimatlar, təlimat kitabçaları, dövri təlimlər və xidmətin mütəmadi olaraq qiymətləndirilməsi vasitəsilə vəkillərə və digər hüquqi yardım təminatçılarına həssas qruplarda inam yaratmaq və nüfuz qazanmağın yollarını öyrətmək; həssas qruplarla bağlı işləri yalnız əlavə tələblərə cavab verən vəkillərə ayırmaq.*

*<u>8-ci tövsiyə:</u> Ucqar ərazilərdə yerləşən icmalara xidmət edən vəkillərin sayını artırmaq üçün stimullaşdırıcı tədbirlər yaratmaq tövsiyə edilir.*

### *3. Məlumatların toplanması*

Azərbaycanda insanların, xüsusən də həssas qrupların hüquqi ehtiyaclarını başa düşmək üçün yaş, cins, əlillik, milliyyət/miqrasiya statusu üzrə dezaqreqasiya oluna bilən məlumatların müntəzəm toplanmasına imkan verən sistemə investisiya etmək məqsədəuyğun olardı. Məlumat toplamaq üçün müxtəlif üsullar mövcuddur. Bunlardan biri, sistemin ümumi güclü və zəif tərəfləri ilə bağlı geniş spektrli maraqlı tərəflər (vəkillər, hakimlər, benefisiarlar və s.) arasında sorğu aparmaqdır.[69] Başqa bir üsul isə elektron məlumat toplama vasitələrindən istifadədir. Vyetnamda xidmət təminatçıları hər altı aydan bir öz fəaliyyətləri haqqında əsas məlumatları Ədliyyə Nazirliyinə göndərirlər (məsələn, baxdıqları işlərin sayı). Bu məlumatlar telefon, mobil tətbiq və ya SMS vasitəsilə ilə təqdim edilə bilər.

Bəzi xidmət təminatçıları, xüsusən də ucqar ərazilərdə fəaliyyət göstərənlər formanı onlayn olaraq təqdim edə bilərlər. Təqdim olunan informasiyalar milli hüquqi yardım orqanı tərəfindən məlumatların kompilyasiyası üçün istifadə olunur. Hüquqi köməkçilər üçün, məsələn, onların bütün əsas funksiyalarını əhatə edən on yeddi forma mövcuddur. Hər bir fəaliyyət üçün onlar həmin fəaliyyətin başa çatmasından dərhal sonra müvafiq formanı doldururlar.[70]

*<u>9-cu tövsiyə:</u>* Əhalinin, xüsusən də həssas qrupların hüquqi ehtiyaclarını öyrənmək üçün məlumat toplamaq və sorğu və ya elektron məlumat toplama mexanizmləri vasitəsilə hüquqi yardım üzrə bütün maraqlı tərəflər arasında əlaqəni, koordinasiyanı və əməkdaşlığı yaxşılaşdırmaq tövsiyə olunur.

## *D. Xidmətin iqtisadi səmərəliliyi*

Bu bölmə qarşıdakı illərdə hüquqi yardım xidmətlərinin dayanıqlılığını qoruyub saxlamaq üçün Azərbaycanda mövcud olan resurslardan maksimum səmərəli istifadənin yollarına nəzər salır. İnsanlar ehtiyac duyduqları yardımı ən erkən mərhələdə alarsa, bir çox hüquqi problem tez və asanlıqla həll edilə bilər.[71] Erkən müdaxilə mexanizmləri insanlara hüquq sistemini anlamağa və öhdəsindən gəlməyə və yüksək xərclər doğuran və vaxt aparan məhkəmə proseslərindən xilas olmağa kömək edə bilər. Bu mexanizmlərdən bəziləri artıq Azərbaycanda mövcuddur. Bunlara "bir pəncərə" prinsipinə əsaslanan mərkəzlər, səyyar qruplar, ən son hüquqi yeniliklərdən xəbərdar olmağa imkan verən "E-qanun" kimi

---

[68] Bax, məsələn: https://www.barreausolidarite.org/nos-actions/actualites.html and https://www.lawworks.org.uk/solicitors-and-volunteers/get-involved/lawworks-pro-bono-awards-2021.

[69] Bax, məsələn: Christine Coumarelos et al. (2012) *Legal Australia-wide survey: Legal need in Australia (Avstraliya üzrə hüquqi sorğu: Avstraliyada hüquqi ehtiyaclar)* (Sydney, Law and Justice Foundation of New South Wales).

[70]UNODC (2019) Handbook on ensuring quality of legal aid services in criminal justice processes: practical guidance and promising practices. (Vienna, UNODC). p. 74.

[71] AŞ Təlimatları (2021), təlimat 5(q).

mobil tətbiqlər və insanları onların yararlana biləcəkləri yardım növləri və hüquqi yardım üçün müraciət qaydası barədə məlumatlandıran Vəkillər Kollegiyasının saytı daxildir.

Bundan əlavə, özünəyardım alətləri bir sıra üstünlüklərə malik ola, insanların təsəvvürlərini yaxşılaşdıra, hüquqi yardım xidmətləri barədə məlumatlılığı və onların əlçatanlığını artıra bilər. Bu cür İT həlləri dövlətlərə ehtiyac duyduqları məlumatı əldə edə bilməyən insanların səlahiyyətlərini artırmaq, çoxlu sayda insana çevik cavab vermək və hüquqi yardım xidmətlərinin xərclərinin artmasının qarşısını almaq imkanı verir. Tədqiqatlar göstərir ki, bu cür alətlər xüsusilə yüksək səviyyəli gərginlik və streslə xarakterizə olunan ciddi münaqişələrlə məşğul olan şəxslər üçün mühüm məlumat mənbəyi ola bilər.[72] Bu kontekstdə, məsələn, BMT-nin “Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair beynəlxalq prinsiplər və rəhbər qaydalar”ı dövlətlərdən fiziki formada göstərilən hüquqi xidmətlərdən əlavə, onlayn hüquqi yardım xidmətləri vasitəsilə hüquqi məsləhətə çıxışın təmin edilməsini nəzərdən keçirməyi xahiş edir.[73] Məsələn, Belçikada çat-botlar insanlara hüquqi yardım sistemini anlamaqda və irəliləməkdə kömək edir. Çat-bot hüquqi yardım üçün müraciət edən şəxsin bu yardımı almaq üçün uyğun olub-olmadığını müəyyən etmək üçün sadə suallardan istifadə edir və hüquqi yardım üçün lazım olan sənədlər haqqında məlumat verir. Hüquqi yardım almaq hüququ olmayan şəxs Vəkillər Kollegiyasının internet saytında yerləşdirilən və istifadəçinin problemini və yerləşdiyi yeri nəzərə alan "Vəkil" moduluna yönləndirilir.[74] Niderlandda dövlət tərəfindən maliyyələşdirilən "Rechtswijzer" veb-saytı insanlara öz hüquqi problemlərinin həlli yollarını interaktiv şəkildə tapmaq üçün bir sıra özünəyardım vasitələri təklif edir. "Qərar ağacı" Niderland əhalisinin həyatında boşanma, istehlakçı problemləri və mənzil problemləri kimi ən çox rast gəlinən hüquqi problemləri sadalayır. Veb-sayt insanlara hüquqi prosesə başlamaq üçün standart formaları pulsuz yükləməyə və insanlara hüquqi problemlərini özlərinin necə həll edə biləcəklərini və hüquqi yardıma nə vaxt müraciət etməli olduqlarını tövsiyə edən “fəaliyyət planı” yaratmağa imkan verir. Boşanma hallarında istifadəçilər üçtərəfli onlayn formatda mediatorla əlaqə saxlaya bilərlər. Veb-saytda həmçinin məişət zorakılığı qurbanlarına psixoloji dəstək kimi qeyri-hüquqi xidmətlərin qaynar xətlərinin əlaqə məlumatları da göstərilir.[75] Hüquqi yardım təminatçıları da xidmətin keyfiyyətini təmin etmək üçün IT alətlərindən istifadə edə bilər. Ukraynada “WikiLegalAid” onlayn məlumat bazası ilkin hüquqi yardım xidmətləri göstərən məsləhətçilərə bütün gündəlik fəaliyyətlərində köməklik göstərir. Məlumatlar bazası onlara nümunəvi sənəd formalarına (məsələn, zərər çəkmiş şəxslərə yardım təşkilatına yönləndirmə forması), presedent hüququna və hüquqi yardım məsləhətxanasına müraciət edən insanların ən çox rast gəlinən suallarının cavablarına çıxış imkanı verir.[76] Azərbaycanda adambaşına düşən hüquqi yardım büdcəsinin aşağı olmasına baxmayaraq, digər AŞ üzv dövlətləri[77] ilə müqayisədə İT sahəsinə nisbətən yüksək səviyyədə resurslar ayırdığını nəzərə alaraq, hökumət hüquqi yardım sektoru üçün İT həllərinin istifadəsinə daha çox investisiya etmək və bu cür alətləri bütün insanlar üçün əlçatan etmək istiqamətində səylərini gücləndirməlidir.

*<u>10-cu tövsiyə:</u> Qarşıdakı illərdə Azərbaycanın hüquqi yardım sisteminin dayanıqlılığını qoruyub saxlamaq üçün interaktiv özünəyardım alətləri vasitəsilə, erkən müdaxilə üsullarından istifadəni artırmaq tövsiyə olunur.*

[72] Esmée Bickel et al. (2015) *Online legal advice and conflict support: a Dutch experience* (Enschede, University of Twente). p. 50-53.
[73] Məsələn, bax: UN International Principles and Guidelines on Access to Justice for Persons with Disabilities, principle 6(2)(d).*(Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair prinsiplər və rəhbər qaydalar)*
[74] https://www.balielimburg.be/.
[75] https://rechtwijzer.nl/
[76] https://wiki.legalaid.gov.ua/index.php
[77] CEPEJ (2020) Evaluation of judicial systems 2018-2020 (Strasburg, CoE). p. 21.

**IV bölmə: Tövsiyələr**

***1. Xidmətlərin əlçatanlığı***

a) Hüquqi yardımın qanunvericilik bazası

*aa) Hüquqi yardım üçün uyğunluq hədləri*

*1-ci tövsiyə: Mülki-Prosessual Məcəllədə və İnzibati Xətalar Məcəlləsində hüquqi yardım almaq hüququna malik qrupları təsvir etmək üçün istifadə edilən termin və ifadələri aydınlaşdırmaq tövsiyə edilir (məsələn, hüquqi yardımı tənzimləyən əhatəli bir sənəd qəbul etməklə və əlavə şərh aləti kimi izahlı qeyd hazırlamaqla). Bu, hüquqi yardım təminatçılarına hüquqi yardım üçün potensial ərizəçiləri daha yaxşı müəyyən etməkdə kömək edəcək.*

*2-ci tövsiyə: Hüquqi yardım xidmətindən istifadəni asanlaşdırmaq məqsədilə, Mülki-Prosessual Məcəllədə və xüsusilə İnzibati Xətalar Məcəlləsində hüquqi yardım almaq üçün göstərilən maddi uyğunluq meyarlarını daha da aydınlaşdırmaq tövsiyə edilir (məsələn, insanların gəlir və aktivlərinə əsasən onların hüquqi yardım üçün uyğunluğunu qiymətləndirməklə və ya müəyyən "həssas qrupa" daxil olması səbəbilə hüquqi yardım almaq hüququnu müəyyən etməklə).*

*bb) İlkin və ikinci səviyyəli hüquqi yardımın tərifi*

*3-cü tövsiyə: İlkin və ikinci səviyyəli hüquqi yardımın tərifini hazırlamaq tövsiyə olunur. O, ilkin və ikinci səviyyəli hüquqi yardımın əhatə etdiyi xidmətlərin növlərini, xidmətdən kimlərin faydalana biləcəyini, ilkin və ikinci səviyyəli hüquqi yardımı hansı növ xidmət təminatçılarının göstərə biləcəyini aydın şəkildə göstərməlidir. Bu cür tərif hüquqi yardımın təminatçılarında və benefisiarlarında xidmətdən gözləntilərinə dair daha çox müəyyənlik yaradacaqdır. Bundan əlavə, bu tərifə Azərbaycanın ilkin hüquqi yardım sisteminin çevik uyğunlaşma qabiliyyətini təmin etmək üçün "ikinci səviyyəli hüquqi yardımın əhatə dairəsinə daxil olmayan digər xidmətlər"in ilkin hüquqi yardıma daxil olduğunu göstərən mətn də əlavə edilə bilər.*

b) Xidmətin təbliği

*4-cü tövsiyə: Mövcud hüquqi yardım mərkəzlərinin binalarının müvafiq plakatlarla nişanlanması kimi vasitələrlə onların daha çox tanınmasını, diqqət çəkməsini təmin etmək, yerli əhalinin tez-tez getdiyi yerlərdə hüquqi yardım üçün məsafədən çıxış məntəqələri yaratmaq (məsələn, yerli poçt şöbəsində) tövsiyə edilir. Həmçinin, hüquqi yardım xidmətlərindən istifadədə fiziki və psixoloji maneələri aradan qaldırmaq üçün müxtəlif rabitə kanallarından istifadə etmək və insanları onlar üçün nəzərdə tutulan bu cür xidmətlərin mövcudluğu barədə məlumatlandırmaq tövsiyə olunur. Bu, həm də həssas qrupların və ucqar ərazilərdə yaşayan insanların xidmətdən daha yaxşı istifadə etməsinə imkan verəcək.*

***2. Xidmət təminatçıları arasında səmərəli koordinasiya***

*5-ci tövsiyə: İnsanların adekvat hüquqi və qeyri-hüquqi yardımı almasını təmin etmək üçün Vəkillər Kollegiyasının rəhbərliyi altında yönləndirmə/göndəriş sisteminin yaradılması tövsiyə olunur. İnsanların göndəriş əsasında yönləndirildiyi təminatçı tərəfindən ilkin səviyyədə keyfiyyətli xidməti təmin etmək üçün yalnız müəyyən qəbul meyarlarına cavab verən təminatçılara yönləndirmə sisteminə qoşulmaq icazəsi verilməlidir. Daha çox yardıma ehtiyacı ola biləcək həssas qrupların ehtiyaclarına xüsusi diqqət yetirilməlidir.*

*6-cı tövsiyə: Yönləndirmə edən əməkdaşların digər təminatçıya yönləndirmələrin edilməsi qaydası barədə lazımi hazırlıq keçməsi tövsiyə olunur. Bu məqsədlə, yönləndirmə vərəqinin necə doldurulması, şəxsin həssaslığının müəyyən edilməsi qaydasını və s. izah edən təlimat kitabçası hazırlana bilər.*

***3. Xidmətin keyfiyyət təminatı***

*7-ci tövsiyə: Vəkillər Kollegiyasına səylərini gücləndirmək və öz rəhbərliyi altında və digər hüquqi yardım tərəfdaşları ilə əməkdaşlıq şəraitində ilkin və ikinci səviyyəli hüquqi yardımın göstərilməsi üçün minimum keyfiyyət standartları toplusu hazırlamaq tövsiyə olunur. Bu standartlar aşağıdakı məqsədləri daşımalıdır: vəkillərin üzərinə düşən yükü yüngülləşdirmək; hüquqi, məsləhət və rəqəmsal bacarıqlar sahəsində bacarıqları gücləndirmək; standartlaşdırılmış peşəkar təlimatlar, təlimat kitabçaları, dövri təlimlər və xidmətin mütəmadi olaraq qiymətləndirilməsi vasitəsilə vəkillərə və digər hüquqi yardım təminatçılarına həssas qruplarda inam yaratmaq və nüfuz qazanmağın yollarını öyrətmək; həssas qruplarla bağlı işləri yalnız əlavə tələblərə cavab verən vəkillərə ayırmaq.*

*8-ci tövsiyə: Ucqar ərazilərdə yerləşən icmalara xidmət edən vəkillərin sayını artırmaq üçün stimullaşdırıcı tədbirlər yaratmaq tövsiyə edilir.*

*9-cu tövsiyə:* Əhalinin, xüsusən də həssas qrupların hüquqi ehtiyaclarını öyrənmək üçün məlumat toplamaq və sorğu və ya elektron məlumat toplama mexanizmləri vasitəsilə hüquqi yardım üzrə bütün maraqlı tərəflər arasında əlaqəni, koordinasiyanı və əməkdaşlığı yaxşılaşdırmaq tövsiyə olunur.

***4. Xidmətin xərc baxımından səmərəliliyi***

*10-cu tövsiyə: Qarşıdakı illərdə Azərbaycanın hüquqi yardım sisteminin dayanıqlılığını qoruyub saxlamaq üçün interaktiv özünəyardım alətləri vasitəsilə, erkən müdaxilə üsullarından istifadəni artırmaq tövsiyə olunur.*

***Tövsiyələrin icrasını təmin etmək üçün əlaqələndirici komitənin yaradılması***

*Əlavə olaraq, yuxarıda təqdim olunan tövsiyələrin icrası üçün Vəkillər Kollegiyasının rəhbərliyi altında İstiqamətləndirici Komitə kimi rəsmi mexanizmin yaradılması məqsədəuyğun ola bilər. Komitə, tövsiyələrin icrasına nəzarət etmək üçün mütəmadi olaraq iclas keçirə bilər. İstiqamətləndirici Komitə, hər birindən bir nəfər olmaqla, Vəkillər Kollegiyası və Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı, ASAN və yerli QHT-lərin təmsilçilərindən ibarət ola bilər. QHT-lər Kollegiyanın dəvəti ilə Komitənin iclaslarında iştirak edə bilər. Milli və beynəlxalq ekspertlər tövsiyələrin həyata keçirilməsində İstiqamətləndirici Komitəyə kömək edə bilər.*

*İstiqamətləndirici Komitənin qarşısında aşağıdakı tapşırıqlar qoyula bilər:*
*- Tövsiyələrin icrası üçün iş planı və vaxt qrafiki hazırlamaq. Bura sorğu, pilot layihə, milli hüquqi yardım çərçivəsinə yenidən baxılması və IT alətlərinin daha da təkmilləşdirilməsi daxil ola bilər.*
*- Xidmətlə bağlı təlimatların (rəhbər qaydalar, təlimat kitabçaları, hüquqi yardım təminatçıları üçün təlim (təkrar)) hazırlanmasına nəzarət etmək.*
*- Mövcud hüquqi yardım xidmətləri barədə məlumatlılığı artırmaq üçün maarifləndirmə planının hazırlanmasına nəzarət etmək.*
*- İş planının icrasına istiqamət vermək, rəhbərlik etmək, dəstək vermək və nəzarət etmək.*
*- İş planı üçün monitorinq və qiymətləndirmə planı qəbul etmək.*

***Ədəbiyyat***


Aliyev, Intigam (2022) *The Bar and lawyers in Azerbaijan* (*Azərbaycanda Vəkillər Kollegiyası və Vəkillər*) (London, International Bar Association).

ASEAN Intergovernmental Commission on Human Rights (2019) *Thematic study on legal aid* (*Hüquqi yardıma dair tematik tədqiqat*) (Jakarta, ASEAN Secretariat).

Barreau de Solidarité de Paris (2021) Bus de solidarité. *Barreau de Solidarité*. https://www.barreausolidarite.org/nos-actions/bus-solidarite.html.

Bickel Esmée A., Marian A.J. van Dijk, and Ellen Giebels (2015) *Online legal advice and conflict support: a Dutch experience* (*Onlayn hüquqi məsləhət və münaqişələrdə dəstək: Holland təcrübəsi*) (Enschede, University of Twente).

Bureau of Jail Management and and Penology 'Electronic paralegal learning module' (*Hüquqşünas köməkçiləri üçün elektron təlim modulu*). *Bureau of Jail Management and and Penology*. https://www.bjmp.gov.ph/EPLM/.

Committee against Torture (2016) *Concluding observations on the fourth periodic report of Azerbaijan* (*Azərbaycanın dördüncü dövri hesabatına dair yekun müşahidələr*) CAT/C/AZE/CO/4 27 January.

Avropa Şurası (2022) 'Azerbaijan'. *Avropa Şurası.* https://www.coe.int/en/web/portal/azerbaijan.

- (2021) *The Efficiency and the Effectiveness of Legal Aid Schemes in the Areas of Civil and Administrative Law: Guidelines and Explanatory Memorandum* (*Mülki və inzibati hüquq sahələrində hüquqi yardım mexanizmlərinin səmərəliliyi və effektivliyi: rəhbər qaydalar və izahlı arayış*)(Strasbourg, Council of Europe).

Council of Europe European Commission for the Efficiency of Justice (2020) 'Dynamic database of European judicial systems: Azerbaijan'. (*Avropa ədliyyə sistemlərinin dinamik məlumatlar bazası: Azərbaycan*) *Council of Europe*. https://public.tableau.com/app/profile/cepej/viz/OverviewEN/Overview.

(2020) Evaluation of judicial systems 2018-2020 (*2018-2020-ci illərdə ədliyyə sistemlərinin qiymətləndirilməsi*) (Strasburg, Council of Europe).

(2022) *Handbook for the one-stop advice service pilot project on legal aid in Latvia* (*Latviyada hüquqi yardıma dair "bir pəncərə" prinsipi əsasında məsləhət xidməti üzrə pilot layihə üçün masaüstü kitabça*) (Strasbourg, Council of Europe).

Council of Europe Committee European Committee on Legal Co-operation (2021) *Guidelines on the efficiency and effectiveness of legal aid systems in areas of civil and administrative law* (*Mülki və inzibati hüquq sahələrində hüquqi yardım sistemlərinin səmərəliliyi və effektivliyinə dair rəhbər qaydalar*) (Strasbourg, Council of Europe).

Coumarelos Christine, Deborah Macourt, Julie People, Hugh M. McDonald, Zhigang Wei, Reiny Iriana and Stephanie Ramsey (2012) *Legal Australia-wide survey: Legal need in Australia (Avstraliya üzrə hüquqi sorğu: Avstraliyada hüquqi ehtiyaclar)* (Sydney, Law and Justice Foundation of New South Wales).

Disability Research and Capacity Development (2020) 'Legal aid DLAW'. *Disability Research and Capacity Development Vietnam*. https://www.drdvietnam.org/en/du-an/tro-giup-phap-ly-dlaw.html.

GOV.UK (2021) 'Legal aid: Eligibility' (*Hüquqi yardım almaq hüququ*). *GOV.UK*. https://www.gov.uk/legal-aid/eligibility.

Het Juridisch Loket (2021) 'Ik kan de mediator of advocaat niet betalen. Krijg ik een toevoeging?'. *Juridisch Loket*. https://www.juridischloket.nl/hoe-we-werken/advocaat-nodig/toevoeging-advocaat/.

International Bridges to Justice (2019) 'Advancing Access to Justice: Legal Aid Mobile Phone Application Launched in Cambodia' (*Ədalətə çıxışın gücləndirilməsi: Kambocada hüquqi yardım üzrə mobil telefon tətbiqi yaradılıb*). *International Bridges to Justice*. https://www.ibj.org/2019/07/ibj-defender-manual-adopted-by-three-bar-associations-in-syria-2/.

Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası (2022) *Məhkəmə-hüquq sistemi* http://judicialcouncil.gov.az/e_mehkeme_ve_huquq.php.

Kingsford Legal Centre (2006) *Referral workbook (Yönləndirmə kitabçası)* (Sydney, Kingsford Legal Centre).

Legal Aid Service (2010) *Annual report 2010* (*2010-cu il üzrə illik hesabat*) (Tbilisi, Legal Aid Service).

Legal Aid Society of Mid-New York (2021) 'Referral hotline' (*Yönləndirmə üzrə qaynar xətt*). *Legal Aid Society of Mid-New York*. https://www.lasmny.org/disablility-advocacy.

Lemke, Stefanie (2022) The Role of Legal Technology to Strengthen the Access to Justice for Disadvantaged Groups: An Overview of Best Practices from Asia and Europe (*Həssas qruplar üçün ədalət mühakiməsinə çıxışı gücləndirmək üçün hüquqi texnologiyanın rolu: Asiya və Avropadan qabaqcıl təcrübələrin xülasəsi*), in: Association for Monitoring Equal Rights (ed.), *International Conference on Access to Justice: Strengthening Access to Justice for Disadvantaged Groups* (Ankara, Association for Monitoring Equal Rights).

Lemke, Stefanie (2022) 'Advocates for Silenced Voices: How Human Rights Lawyers in Europe and Latin America Defend the Rule of Law' (Susdurulmuş səslər üçün vəkillər: Avropada və Latın Amerikasında insan hüquqları vəkilləri qanunun aliliyini necə qoruyur) in Richard L Abel, Ole Hammerslev, Hilary Sommerlad and Ulrike Schultz (eds.), *Lawyers in 21st-Century Societies, Vol. 2: Comparisons and Theories* (Oxford, Hart). p. 353-370.

- (2022) 'Judicial and Prosecutorial Independence in Europe: How Politicized Judges and Prosecutors Undermine the Right to a Fair Trial in Eastern Europe and Central Asia' (Avropada məhkəmə və prokurorluq müstəqilliyi: siyasiləşmiş hakimlər və prokurorlar Şərqi Avropa və Mərkəzi Asiyada ədalətli məhkəmə baxışı hüququnu necə sarsıdır), in Stephanie Schiedermair, Alexander Schwarz and Dominik Steiger (eds.), *Theory and Practice of the European Convention on Human Rights* (Oxford: Hart / Baden-Baden: Nomos). p. 235-260.

Linden Thomas and Nick Johnson (2020) *The clinical legal education handbook (Kliniki hüquqi maarifləndirmə üzrə masaüstü kitabça)* (London, University of London Press).

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi (1999) https://e-qanun.az/framework/46945.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (2015) https://e-qanun.az/framework/46960.

"Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 fevral 2001-ci il tarixli, 31 nömrəli Qərarı.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 783-IQ nömrəli Qanunu.

Azərbaycan Respublikasının Konstitusiyası (1995).

Minority Rights Group International (2022) 'World Directory of Minorities and Indigenous Peoples: Azerbaijan'. (*Azlıqların və yerli xalqların qlobal kataloqu: Azərbaycan*). *Minority Rights Group International*. https://minorityrights.org/country/azerbaijan/.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (2018) 'Azerbaijan Election Lacked Genuine Competition in an Environment of Curtailed Rights and Freedoms, International Observers Say'. (*Beynəlxalq müşahidəçilər: Azərbaycanda seçkilər məhdudlaşdırılmış hüquq və azadlıqlar mühitində həqiqi rəqabətdən məhrum olub*) *OSCE*. www.osce.org/odihr/elections/azerbaijan/377623.

Poirel Christophe (2018) 'Azerbaijan has 15 times fewer lawyers than the European average' (*Azərbaycanda vəkillərin sayı Avropanın orta göstəricisi ilə müqayisədə 15 dəfə azdır*). *Meydan TV* (16 noyabr).

Quality and accessible legal aid in Ukraine project (2018) 'Free legal aid is always nearby' ("Pulsuz hüquqi yardım hər zaman yaxınlıqdadır".) *Quality and accessible legal aid in Ukraine project* (Ukraynada keyfiyyətli və əlçatan hüquqi yardım layihəsi), 12 iyun, http://qala.org.ua/en/news/free-legal-aid-is-always-nearby-an-information-campaign-on-the-right-to-free-legal-aid-was-presented/.

San Diego Law Library (2016) 'Legal information and referral list' (Hüquqi məlumat və yönləndirmə siyahısı). *San Diego Law Library*. https://sandiegolawlibrary.org/wp-content/uploads/wpmc-trash/2015/07/2015_Legal_Info_Referral_List.pdf.

Sherr Avrom, Richard Moorhead and Alan Patterson (1994) *Lawyers: The Quality Agenda* (*Vəkillər: keyfiyyət gündəliyi*) (London, The Legal Aid Board).

Birləşmiş Millətlər Təşkilatı (2019) 'Access to justice project' (Ədalət mühakiməsinə çıxış layihəsi). *Birləşmiş Millətlər Təşkilatı*. https://sustainabledevelopment.un.org/partnership/?p=33320.

- 'Vulnerable Groups: Who are They?' (Həssas qrupar: Onlar kimdir?). *Birləşmiş Millətlər Təşkilatı*. https://www.un.org/en/fight-racism/vulnerable-groups.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası (2015) “Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”, 21 oktyabr, A/RES/70/1.

- (1966) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 16 dekabr, Birləşmiş Millətlər Təşkilatı, Müqavilə seriyası, cild 999, s. 171.

*BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı* (2021) ‘Non-discrimination: groups in vulnerable situations’ (*Ayrı-seçkiliyə yol verməmə: həssas vəziyyətlərdə olan qruplar*). *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı*. https://www.ohchr.org/EN/Issues/Health/Pages/GroupsInVulnerableSituations.aspx.

- (2020) *International Principles and Guidelines on Access to Justice for Persons with Disabilities* (Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair prinsiplər və rəhbər qaydalar) (Geneva, United Nations Human Rights Office of the High Commissioner).

- (2020) ‘International Principles and Guidelines on Access to Justice for Persons with Disabilities‘ (Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair prinsiplər və rəhbər qaydalar). *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı*. https://www.ohchr.org/en/special-procedures/sr-disability/international-principles-and-guidelines-access-justice-persons-disabilities.

- (2015) ‘Zeid condemns civil society crackdown in Azerbaijan’ (Zeid Azərbaycanda vətəndaş cəmiyyətinə təzyiqi qınayır). *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı*. https://www.ohchr.org/en/press-releases/2015/09/zeid-condemns-civil-society-crackdown-azerbaijan

BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsi(2019) *Handbook on ensuring quality of legal aid services in criminal justice processes: practical guidance and promising practices* (*Cinayət ədliyyəsi proseslərində hüquqi yardım xidmətlərinin keyfiyyətinin təmin edilməsinə dair masaüstü kitabça: praktiki təlimat və perspektivli təcrübələr*) (Vienna, United Nations Office on Drugs and Crime).

- (2016) *Global study on legal aid: Global report (Hüquqi yardıma dair qlobal tədqiqat: qlobal hesabat)* (Vienna, United Nations Office on Drugs and Crime).

- (2013) *UN principles and guidelines on access to legal aid in criminal justice systems* (*BMT-nin cinayət ədliyyəsi sistemlərində hüquqi yardıma çıxışa dair prinsipləri və rəhbər qaydaları*) (Vienna, United Nations Office on Drugs and Crime).

BMT-nin Əhali Fondu (2022) ‘World Population Dashboard’ (Dünya əhalinin informasiya paneli). *United Nations Population Fund*. https://www.unfpa.org/data/world-population/AZ.

United Nations Principles and Guidelines on Access to Legal Aid in Criminal Justice Systems (*BMT-nin cinayət ədliyyəsi sistemlərində hüquqi yardıma çıxışa dair prinsipləri və rəhbər qaydaları*), Baş Assambleyanın 67/187 saylı qətnaməsi.

United Nations Special Rapporteur on the independence of judges and lawyers (2013) ‘Legal aid, a right in itself’ (Hüquqi yardım özlüyündə bir hüquqi kimi). *BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı*. https://www.ohchr.org/en/press-releases/2013/05/legal-aid-right-itself-un-special-rapporteur.

BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Xüsusi Məruzəçisi (2020) *International Principles and Guidelines on Access to Justice for Persons with Disabilities* (Əlilliyi olan şəxslər üçün ədalət mühakiməsinə çıxışa dair prinsiplər və rəhbər qaydalar) (Geneva, *United Nations Human Rights Office of the High Commissioner*).